QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 216 (5688) **15 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: "Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır"

*Prezident İlham Əliyev Belarusun Azərbaycandakı səfirini qəbul edib*



Səh 2

**Rusiyalı turist qadın Azərbaycanın Prezidentinə və birinci xanımına təşəkkürünü bildirib**



3

**"Arif Əliyev kimilər günahı digərlərində deyil, özündə axtarsın"**



4

**"2019-cu ildə əmək pensiyaçılarının sayı 1 milyon 294 min nəfər olacaq"**



4

**Qrant missionerlərinin "dövlət sevgisi" haradan qaynaqlanır?**



6

**Ermənistan diplomatiyasının növbəti məğlubiyyəti**



7

**Ermənipərəst Eleni Teoxarus "qara siyahı"ya salındı**



11

13

**İsa Qəmbər geri dönür?**



14

**Orduxan Teymurxanın bişərəflik titulu**



16

**Azərbaycan güləşçisi dünya çempionatının bürünc medalına sahib olub**



# İlham Əliyev: "Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır"

## *Prezident İlham Əliyev Belarusun Azərbaycandakı səfirini qəbul edib*



## *"Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bizim münasibətlər bir çox sahələri əhatə edir:***

-Hörmətli cənab səfir. Yaxın vaxtlarda mənim Belarusa rəsmi səfərim baş tutacaq. Biz Azərbaycanda qarşıdakı səfərə çox böyük əhəmiyyət veririk və səfər ərəfəsində mən sizi səfərin proqramını, eləcə də bizim ikitərəfli münasibətlərimizin bəzi aspektlərini müzakirə etmək üçün dəvət etmişəm. Biz görürük və bilirik ki, Belarusda da Azərbaycan Prezidentinin qarşıdakı rəsmi səfərinə böyük əhəmiyyət verilir. Lap bu yaxınlarda Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko, həmçinin öz fikirlərini bildirmək və qarşıdakı səfərlə bağlı məsələləri müzakirə etmək üçün Azərbaycanın Belarus Respublikasındakı səfirini dəvət etmişdi. Bu gün biz Sizinlə görüşürük. Siz də təcrübəli diplomat kimi yaxşı bilirsiniz ki, bu cür təcrübəyə ölkələrarası münasibətlərdə nadir rast gəlinir. Bu, bizim münasibətlərimizin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsinin göstəricisidir.

Qarşıdakı səfərin mənim Belarusa beşinci rəsmi səfərim olması, Aleksandr Qriqoryeviçin isə Azərbaycana dörd dəfə rəsmi səfərə gəlməsi faktını nəzərə alsaq, düşünürəm ki, bu, münasibətlərimizin nə qədər dinamik və uğurla inkişaf etdiyinin ən yaxşı göstəricisidir. Bizim münasibətlər bir çox sahələri əhatə edir. Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Artıq dediyim kimi, qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Fikrimcə, sənaye kooperasiyası müstəsna səmərəlilik nümayiş etdirir. Aleksandr Qriqoryeviçlə nəzərdə tutduğumuz layihələr gerçəkləşdirilib. Bu gün bu, Azərbaycanın sənaye potensialını möhkəmləndirir. Bu, həmçinin təhsil, elm, mədəniyyət sahələrində də müşahidə edilir. Yəni, ölkələrimizi tammiqyaslı münasibətlər bağlayır. Həmçinin hərbi-texniki sahədə əməkdaşlıq da münasibətlərimizin mühüm amilidir. Biz Belarusdan hərbi texnika alırıq və onun keyfiyyətindən, göstəricilərindən çox razıyıq. Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Doğrudur, Siz bilirsiniz ki, bu, Ermənistanda, belə deyim, psixoz tutmalara səbəb olur. Bu da son dərəcə təəccüblüdür. Çünki Azərbaycan təkcə Belarusdan silah almır. Azərbaycana hərbi texnikanın ən iri tədarükçüsü Rusiyadır. Həmçinin biz Türkiyədən, İsraildən, Pakistandan, Avropa ölkələrindən böyük həcmdə silah-sursat və texnika alırıq. Buna görə də təəccüblüdür ki, iradlar müstəsna olaraq Belarusa göstərilir. Mən hesab edirəm ki, bu, Ermənistanda Belarusa qarşı acizlik kompleksinin təzahürüdür. Səbəblər də kifayət qədər sadədir. Həm Belarus, həm də Ermənistan eyni vaxtda müstəqillik əldə ediblər. Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır. İyirmi il ərzində öz xalqını istismar və qarət edən hakimiyyətin erməni xalqı tərəfindən devrilməsi bunun parlaq təzahürüdür.

Belarus isə bir vaxtlar qoyulan sanksiyalara baxmayaraq, uğurla inkişaf edib və edir. Bu da Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun müdrik siyasətinin nəticəsidir. Belarus güclü, inkişaf edən sənaye və kənd təsərrüfatı, yüksək səviyyəli sosial müdafiəsi olan dövlətə çevrilib. Mən Sizin ölkədə dəfələrlə olmuş insan kimi bunu tamamilə obyektiv və səmimi deyirəm. Buna görə də bizə elə gəlir ki, Ermənistan tərəfindən Sizin ölkənizə qarşı deyilən əsassız iradlar öz məğzinə görə məhz bu amilə əsaslanır.

Həmçinin biz təbii ki, regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş Sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir. Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür, bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir. Eyni zamanda, bildiyiniz kimi, Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür.

**Ardı Səh. 3**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununu imzalayıb.

* * *

Prezident İlham Əliyev Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Çili Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1309-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasa təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Fələstin arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq daha da genişlənəcək və inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və rifah diləyirəm".

# İlham Əliyev: "Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır"

## *Prezident İlham Əliyev Belarusun Azərbaycandakı səfirini qəbul edib*

Əvvəli-Səh-2

İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş namizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir. Yəni, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi. Bu adamın cinayətə görə təqib edilərək sürgün edilməsi isə beynəlxalq təcrübədə nadir hadisədir - beynəlxalq məmur bu minvalla məsuliyyətə cəlb olunur və üzv ölkələrə heç bir xəbər verilmir. Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir. Bizim münasibətlərimizə gəlincə, onlar sarsılmazdır, möhkəm bünövrəyə malikdir, dostluq, qarşılıqlı hörmət, dəstək münasibətlərinə əsaslanır və gələcəyə yönəlib. Əminəm ki, mənim dost ölkəyə qarşıdakı səfərim münasibətlərimizi daha da möhkəmləndirəcək. Səfərin gündəliyi olduqca genişdir, xeyli sənəd imzalanacaq. Əminəm ki, həmin sənədlər bundan əvvəl reallaşdırılan digər razılaşmalar kimi gerçəkləşəcək.

x x x

Belarusun Azərbaycandakı səfiri Gennadi Axramoviç:

-Zati-aliləri, çox hörmətli cənab Prezident.

Bizim səbirsizliklə gözlədiyimiz Belarusa səfəriniz ərəfəsində Sizinlə görüşmək imkanına görə minnətdarlığımı bildirirəm. Sizin ikitərəfli münasibətlərimizə verdiyiniz yüksək qiymətə görə təşəkkür edirəm. Mən xatırlayıram ki, əvvəlki - 2016-cı ildəki səfəriniz zamanı Siz Aleksandr Qriqoryeviçlə birlikdə bizim qarşımızda yüksək vəzifə qoydunuz. Mən şadam ki, biz nə qədər çətin olsa da, Sizin qarşımıza qoyduğunuz vəzifələri tam həcmdə yerinə yetirdik.

Bu gün ölkələrimiz arasında əmtəə dövriyyəsi üç dəfədən çox artıb. Azərbaycanın Belarusa ixracı artımlı olan ötən illə müqayisədə 50 faizi ötüb. Mən Sizinlə tamamilə razıyam, yəqin ki, bizim münasibətlərimizdə inkişaf etməyən sahəni tapmaq çətindir. Bu, sənaye və kənd təsərrüfatından tutmuş yüksək texnologiyalara qədər sahələri əhatə edir. Humanitar əməkdaşlığın da inkişaf səviyyəsi çox yüksəkdir. Ölkələrimizdə turizmin qarşılıqlı artımı, idman və mədəni mübadilələr müşahidə edilir. Həm sizin, həm də bizim artistlər mütəmadi olaraq mötəbər teatr və konsert studiyalarında qarşılıqlı çıxış edirlər.

Biz Sizin Belarusa səfərinizə çox ciddi hazırlaşırıq. Hazırlıq çox diqqətlə aparılır, hökumətin nəzarətindədir. Mən düşünürəm ki, artıq imzalanmağa hazır olan razılaşmalar və layihələr əməkdaşlığımıza daha yeni dinamika verəcək. Belarus və Azərbaycan qarşılıqlı əməkdaşlıq üçün açıqdırlar. Mən məmnuniyyətlə qeyd edə bilərəm ki, həm Siz, cənab Prezident, həm də Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko həmişə həm ikitərəfli, həm də çoxtərəfli formatdakı əməkdaşlığımızın konstruktiv təmələ əsaslanmasını və bir-birinə və hər hansı digər ölkələrə, bloklara qarşı yönəlməməsini əldə rəhbər tutursunuz. Həm Siz, həm də Belarus Prezidenti siyasətinizdə həmişə çalışırsınız ki, digər ölkələrlə münasibətlərin inkişafında beynəlxalq hüququn əsas norma və prinsiplərinə ciddi riayət olunsun, bütün münaqişələr konstruktiv ruhda, tədricən və sülh yolu ilə həll olunsun. Mən qeyd etməyə şadam ki, bu planda müəyyən irəliləyiş var. Biz həmişə, o cümlədən beynəlxalq formatlarda da azərbaycanlı dostlarımızın dəstəyinə bel bağlaya bilərik. Eynilə, biz də həmişə müxtəlif beynəlxalq meydanlarda - BMT, ATƏT, Avropa Şurası xətti ilə Azərbaycanı dəstəkləyirik. Biz bunu həmişə hiss edirik. Buna görə də Sizi Belarus Respublikasında görməyimizə çox şad olacağıq. Düşünürəm ki, səfər, xüsusilə də bizim özünəməxsus yubileyimiz - diplomatik münasibətlərin qurulmasının 25 illiyi dövründə, ikitərəfli münasibətlərimizin getdikcə inkişafına yeni dinamika, daha güclü impuls verəcək. Çox sağ olun.

# Dmitri Savelyev: "Feyk-xəbərlər yaradılması texnologiyaları getdikcə daha da təkmilləşir"

***VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC tərəfindən təşkil olunmuş "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiya Forumun ən mühüm sessiyalarından biri idi. Şübhəsiz ki, Forumun əsas hadisəsi Azərbaycan Prezidenti İlham Əliyevin "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda nitq söylədiyi açılış mərasimi oldu.***



Bu fikirləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev deyib. O, işçi sessiyanın yüksək səviyyədə təşkilinə görə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkür edib.

Bakı Beynəlxalq Humanitar Forumunun bütün dünya üçün əlamətdar hadisə olduğunu vurğulayan Dmitri Savelyev deyib: "Biz görürük ki, bu Forumun nüfuzu ildən-ilə daha da artır, dünyanın hər yerindən görkəmli insanlar bu tədbirdə iştirak etmək üçün Bakıya gəlirlər. Mən "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda sessiyada iştirak etdim. Sessiya riyakar kütləvi informasiya vasitələrinin və hətta bəzi dövlətlərin istifadə etdikləri ikili standartlara həsr olunmuşdu. Biz informasiyanın verilməsində KİV nümayəndələrinin mənəvi məsuliyyətinin artırılmasının, informasiyanın sözün həqiqi mənasında dürüst və doğru olmasının zəruriliyindən danışdıq. Hesab edirik ki, informasiya günün hər hansı siyasi konyunkturuna uyğunlaşdırılmamalı, xüsusən də siyasi və dövlətlərarası mübarizə silahı, başqa dövlətlərin alçaldılması vasitəsi olmamalıdır. Təəssüf ki, bu cür vasitələrdən dünya praktikasında yetərincə tez-tez istifadə olunur. Feyk-xəbər adlandırılan xəbərlərin yaradılması texnologiyaları getdikcə daha da təkmilləşir".

Dmitri Savelyevin fikrincə, cəmiyyətin yanlış məlumatlandırılması planetimizdə sülhə və sabitliyə təhlükə yaradır. O deyib: "Bütün dünyanın rəqəmsal dövrə qədəm qoyduğunu, feyk-xəbərlər verilməsi vasitələrinin təkmilləşdiyini və getdikcə daha geniş auditoriyanı əhatə etdiyini nəzərə alsaq, deyə bilərik ki, bu, kütləvi qırğın silahına çevrilir. Biz nüvə, kimyəvi və bioloji silahları kütləvi qırğın silahları hesab edirik, lakin yanlış məlumatlandırma öz dağıdıcılığına görə onlardan heç də az təhlükəli deyil. Sessiya çərçivəsində bu cür dağıdıcı mexanizmlərə qarşı mübarizə məsələlərini müzakirə etdik. Buna görə də bu işçi sessiya Forumun ən mühüm sessiyalarından biri oldu".

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

# Rusiyalı turist qadın Azərbaycanın Prezidentinə və birinci xanımına təşəkkürünü bildirib



Rusiyalı turist qadın Marina Volkova Azərbaycanın Moskvadakı səfirliyinə ünvanlandığı məktubunda bu yaxınlarda Bakıya etdiyi səyahətdən bəhs edib və Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürünü çatdırıb. Səfirliyin mətbuat xidmətində AZƏRTAC-a bildiriblər ki, Marina Volkova məktubunda bu ilin oktyabrında ailəsi ilə birlikdə ilk dəfə Azərbaycanda olduğunu qeyd edir.

Məktubda deyilir: "Mən və ailə üzvlərim Bakının gözəlliyinə heyran olduq. Bir çox ölkələrdə və şəhərlərdə olmuşam, lakin ilk dəfədir ki, bu cür məftunluq hissi keçirirdim. Heyrətamiz dərəcədə əsrarəngiz şəhərdir, binalar son dərəcə gözəl zövqlə işıqlandırılıb. Hər yerdə qonaqpərvərliklə qarşılaşdıq. Gənclərin özündən böyüklərə hörmətlə yanaşması, ictimai nəqliyyatda kişilərin yerini qadınlara verməsi məni valeh etdi. Görünür, bu hörmətcillik hər bir azərbaycanlının qanındadır, bu isə inkişafa və tərəqqiyə aparan əsas yollardan biridir. Yaşlılara hörmət gələcəyin rəhnidir, çünki gələcəyimiz keçmişə münasibətdən asılıdır. Qeyd etməliyəm ki, heç bir ölkədə bu cür gözəl kişi və qadın çöhrələri ilə qarşılaşmadım. Bu, daxili və zahiri gözəlliyin nadir görünən vəhdətidir. Azərbaycan insan qəlbində nurlu və hərarətli hisslər yaradan müstəsna ölkədir. İstərdim ki, bizim ölkələrimiz arasında hər zaman sülh olsun. Ümidvaram ki, Moskvada Azərbaycandan göndərilən gözəl nemətlər daha çox olacaq". Məktubunun sonunda M.Volkova yazır: "Hörmətli İlham Heydər oğlu Əliyev və Mehriban Əliyeva, sizə və ecazkar ölkənizə sülh və əmin-amanlıq arzulayıram! Bakını yenidən görəcəyimə çox ümid edirəm! Uca Yaradan Sizi hifz etsin!".

# “Arif Əliyev kimilər günahı digərlərində deyil, özündə axtarsın”

***“Azərbaycanda mətbuatın inkişafı ilə bağlı mühüm addımlar atılır, uğurlu media siyasəti həyata keçirilir. Bu gün Azərbaycanda mətbuata kifayət qədər diqqət və qayğı var. Biz hal-hazırda Milli Məclisdə Azərbaycan Respublikasının Dövlət büdcəsini müzakirə edirik.***



Büdcədən Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) kifayət qədər vəsaitlər ayrılıb. O cümlədən bir sıra qəzetlərin “Azərbaycan” Nəşriyyatına olan borcları dondurulub”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, jurnalistlər üçün hansı mətbuatda işləməsindən asılı olmayaraq təmənnasız mənzillər tikilib verilib və onların mənzil-məişət şəraiti yaxşılaşdırılıb: “Xüsusi proqramlar əsasında onların kurslarının artırılması və s. təmənnasız şəkildə dövlət tərəfindən həyata keçirilib. Ümumilikdə götürdükdə bu sahədə çox ciddi və nümunə ola biləcək şəkildə işlər görülüb. Azərbaycanda internet tamamilə azaddır və istənilən şəxslər bundan lazımi qaydada istifadə edə bilər. Təbii ki, bütün vətəndaşlar da istifadə edir. Hətta bəziləri bundan sui-istifadə də edir. O baxımdan da istənilən mətbuat orqanının çap olunması, saytların açılması Azərbaycanda tam şəkildə azaddır və həyata keçirilir. Əgər kimsə bir mətbuat orqanı və yaxud da hansısa sayt yarada bilmirsə, addım ata bilmirsə onun günahını digərlərində deyil, özündə axtarsın.

Bu gün dünyanın qarışıq bir vaxtında ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması başda cənab Prezident İlham Əliyev olmaqla hüquq-mühafizə və xüsusi xidmət orqanlarının üzərinə düşür. Bu gün Azərbaycanda erməni təxribatları, eləcə də digər təxribat törətmək istəyən (etnik, dini zəmində) qüvvələr var. Həmçinin iqtisadi sferada təxribat törətmək istəyən qüvvələr mövcuddur. Azərbaycanın təhlükəsizlik orqanları bunun qarşısını kifayət qədər alır. Ona görə də Arif Əliyev kimi şəxslər əgər bu məsələdən danışa bilərsə bir ölkənin başqa bir ölkə ilə müqayisəsini göstərsinlər. Bu gün Azərbaycanı ictimai sabitlik adası adlandırırlar. Bu gün bütün beynəlxalq tədbirlər, idman yarışları ölkəmizdə keçirilirsə, təhlükəsizlik tam təmin olunursa artıq burada qarayaxma keçən yol deyil”.

# “2019-cu ildə əmək pensiyaçılarının sayı 1 milyon 294 min nəfər olacaq”



“Sosial təminat sisteminin bütün istiqamətləri üzrə ödənişlərin davamlı artımına. Bu sistemin əhatə dairəsinin genişləndirilməsinə nail olmaqla dövlət başçısının tapşırıqları əsasında özünəməşğulluq proqramlarının icrasında aztəminatlı və həssas qruplar üçün dövlət dəstəyi, kiçik ailə təsərrüfatları biznesə çıxış imkanlarının yaradılması, onların ünvanlı sosial yardım proqramlarından asılılığın azaldılması və digər işlər geniş vüsət alıb”. SİA-nın xəbərinə görə, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev parlamentdə “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı çıxış edərkən deyib.

O bildirib ki, pensiya, müavinət sosial yardım formasında ödənişlərlə təmin olunan 2.1 milyona yaxın insanın və ya ölkə əhalisinin təqribən 21 faizini əhatə edən sosial təminat sisteminin gücləndirilməsinə onun uzun müddətli inkişafı üçün etibarlı, dayanıqlı inkişafın formalaşdırılması ilə bərabər korupsiya, süründürməçilik hallarından uzaq, tam şəffaf, və sosial ədalət prinsipini təcəssüm etdirən və vətəndaş məmnunluğuna səbəb olan sosial təminat sisteminin qurulması, islahatlar paketinin əsas hədəfini təşkil edir.

Nazirin sözlərinə görə, hazırda ölkədə sosial müdafiə sistemi vasitəsilə 1 milyon 309 min nəfər əmək pensiyası, 509 min nəfər müxtəlif müavinətlər, 64 min nəfər Azərbaycan Prezidentinin təqüdlərini, 50.2 min ailənin 200 min 200 üzvü isə sosial yardım alır: “Onlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hər ay 340 milyon manatdan çox vəsait ödənilir”.

S. Babayev qeyd edib ki, cari ildə ölkə iqtisadiyyatının inkişaf meylləri növbəti illərdə sosial iqtisadi inkişafın əsas proqnozları, 2017-2018-ci illər Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrasının nəticələri 2018-ci ildə əhalinin gəlirləri və məşğulluq göstəriciləri, demoqrafik inkişaf tendensiyaları pensiya təminatı sahəsində aparılan kompleks tədbirlərin təsirləri də nəzərə alınmaqla pensiya sisteminin paramaterlərinin dəyişməsi əsas götürülüb: “Apardığımız hesablamalara görə, 2019-cu ildə demoqrafik inkişaf meylləri, əhalinin məşğulluğu və sosial vəziyyətinin göstəriciləri, eləcə də pensiya qanunvericiliyində son dəyişikliklər nəzərə alınmaqla sığorta pensiya sisteminin əsas parametrləri aşağıdakı kimi gözlənilir. Doğulanların sayı 150 min nəfər , doğulanda gözlənilən ömrün uzunluğunun 75.7 yaş, qadınlar üçün 78, kişilər üçün 73.5 yaş, 15-64 yaş arası əmək qabiliyyətli ümumi əhalinin 71 faizi, 65 yaşdan yuxarı əhalinin isə bütün əhalinin 6.4 faizini təşkil edəcək”.

Nazir qeyd edib ki, növbəti ildə iqtisadiyyatla məşğul olanların sayı 4 milyon 994 min nəfər olacaq: “Muzdlu işçilərin orta illik sayı 1 milyon 548 min nəfər olacağı proqnozlaşdırılır. 2019-cu ildə pensiya sisteminə daxil olacaq və pensiya sistemindən çıxacaq pensiyaçıların sayı proqnozlar əmək pensiyaçılarının orta bir illik sayının 1 milyon 294 min nəfər olacağını göstərir”.

# XİN rəsmisi: “Azərbaycan tərəfi görüşməyə razı olduğunu hər zaman bildirib”

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu ilin dekabr ayında Milanda keçiriləcək ATƏT-in Nazirlər Şurasının iclası çərçivəsində görüşü barədə mətbuatda yayılan məlumata Azərbaycan XİN-dən münasibət bildirilib.



Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva SİA-ya açıqlamasında deyib ki, Azərbaycan Ermənistan xarici işlər naziri ilə nəinki beynəlxalq tədbir çərçivəsində, həm də kənar formatda substantiv və nəticəyə yönəlik danışıqlar üçün görüşməyə razı olduğunu hər zaman bildirib: “ATƏT-in Minsk Qrupunun həmsədrləri bu görüşlərin təşkili istiqamətində müvafiq iş aparırlar. Azərbaycan tərəfi həmsədrlərin sülh danışıqlarını irəli aparmaq və Ermənistanı danışıqlarda konstruktiv mövqeyə gətirmək təklifini dəstəkləyir”.

# Norveçli diplomat: Naxçıvanın son illərdə əldə etdiyi nailiyyətlər məni çox təsirləndirdi




Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Olav Nils Thue Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın təhsil, səhiyyə, istehsal, mədəniyyət müəssisələri və tarixi abidələri ilə tanış olub. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, əvvəlcə qonaq ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Səfər çərçivəsində Olav Nils Thue Naxçıvan Biznes və Duzdağ Fizioterapiya mərkəzləri ilə tanış olub. Sonra Naxçıvan Dövlət Universitetinə gələn qonağa ali təhsil ocağı barədə ətraflı məlumat verilib, universitetlərarası gələcək tərəfdaşlıq imkanları müzakirə olunub. Naxçıvan Avtomobil Zavodunun, “Gəmiqaya Mineral Sular”, “Gəmiqaya Mebel Fabriki” və “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal prosesləri ilə tanışlıq qonaqda böyük təəssürat yaradıb.

Diplomat Naxçıvan Günəş Elektrik Stansiyasının fəaliyyəti ilə maraqlanıb, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət edib. Səfər müddətində Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan qonağa həmin mədəniyyət ocaqları barədə ətraflı məlumat verilib.

AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində səfər təəssüratları barədə danışan Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili bildirib ki, Naxçıvanda olduğu iki gün ərzində yüksək səviyyəli görüşlər keçirib, qədim diyarın iqtisadi potensialı və tariximədəni abidələri ilə tanış olub, geniş məlumat əldə edib. O, Naxçıvana səfərinin çox səmərəli keçdiyini vurğulayıb. Qonaq deyib: “Naxçıvanın güclü iqtisadi potensiala malik olması, burada son illərdə əldə edilən nailiyyətlər, sözün açığı, məni çox təsirləndirdi. Mən bu qədim diyardan çox xoş təəssüratlarla ayrılıram, göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığımı bildirirəm”. Olav Nils Thue vurğulayıb ki, Naxçıvan haqqında daha zəngin məlumatlar əldə etmək məqsədilə buraya bir daha gəlmək arzusundadır.

# Əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadənin xatirəsi anılacaq

“Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında” ölkə başçısının müvafiq Sərəncamının icrası məqsədilə Müdafiə, Təhsil və Mədəniyyət nazirlikləri tərəfindən təsdiqlənmiş tədbirlər planına uyğun olaraq noyabrın 19-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının elmi-konfrans zalında əfsanəvi kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı və rəssam Mehdi Hüseynzadənin anım günü təşkil ediləcək.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, anım mərasimində Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən hazırlanmış Mehdi Hüseynzadənin həyat və fəaliyyətinə (xüsusən rəssamlıq fəaliyyətinə) həsr olunmuş xüsusi təqdimat keçiriləcək, akademiyanın təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının professoru, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev M.Hüseynzadənin bədii yaradıcılığı, təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov isə M.Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi məqsədilə aparılan işlər barədə məruzə ilə çıxış edəcəklər.

# Milli Məclisdə "2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda təsdiq edilib

***Noyabrın 14-də Milli Məclisin plenar iclasında 2019-cü ilin dövlət büdcəsi ilə bağlı müzakirələr davam etdirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açdıqdan sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi ilə bağlı müzakirələr aparılıb.***



Çıxış edən deputatlar 2019-cu ilin büdcəsini yüksək dəyərləndiriblər. Layihənin mükəmməl sənəd olduğu vurğulanıb. Qeyd edilib ki, gələn ilin dövlət büdcəsi mövcud reallıqlar nəzərə alınmaqla tərtib olunub. Peşəkarlıqla hazırlanmış bu maliyyə sənədi növbəti ildə iqtisadiyyatın inkişafına və əhalinin sosial müdafiəsinin təmin edilməsinə, eyni zamanda, ölkənin müdafiə qüdrətini artırmağa, beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini daha da möhkəmləndirməyə imkan verəcək. 2019-cu ilin dövlət büdcəsinin bütövlükdə sosialyönümlülüyünü saxlaması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra proqramların maliyyələşdirilməsinin nəzərdə tutulması təqdirəlayiq hal kimi qiymətləndirilib. Büdcənin sosialyönümlülüyü sayəsində hər bir ailə dövlət qayğısı ilə əhatə olunacaq. Büdcədə nəzərdə tutulan sosial xərclər sosial rifahın yaxşılaşdırılmasının dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir.

Müzakirələrdən sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda təsdiq edilib.

Sonra əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsini təqdim edib. Bildirilib ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial siyasət və sosial müdafiə sahəsində dünyaya nümunə olacaq tədbirlər həyata keçirilib. Proqramlarla idarəetmə, regional inkişaf, qabaqlayıcı tədbirlər, müyəssərlik, ünvanlılıq və şəffaflıq ideyaları bu fəaliyyətin təməl prinsipləridir. Komitə sədri deyib ki, gələn ilin dövlət büdcə xərclərinin 33,4 faizi sırf sosial məqsədlərə yönəldilib. Sosial təminat və müdafiəni həyata keçirən orqanın 2019-cu il üçün büdcəsi cari illə müqayisədə təxminən 500 milyon manat artaraq 3 milyard 928 milyon manat təşkil edib. Bu büdcənin 61,5 faizi bilavasitə dövlət sosial sığorta yığımlarının toplanması hesabına nəzərdə tutulub. Bu rəqəmin 62 faizi və ya 1,5 milyardı qeyri-büdcə sektoru hesabına toplanacaq.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çevik, uzaqgörən sosial-iqtisadi strategiyası, qlobal proseslərə və müasir çağırışlara uyğun islahatlar proqramı milli iqtisadiyyatın dinamik, dayanıqlı və uzunmüddətli inkişafını, əmək resurslarından səmərəli istifadəyə şərait yaradılmasını və məşğulluq səviyyəsini mütəmadi artımını, əhalinin sosial müdafiəsinin gücləndirilməsini təmin edib.

Nazir diqqətə çatdırıb ki, pensiya və müavinət, təqaüd və sosial yardım formasında ödənişlərlə təmin olunan 2,1 milyona yaxın insanı və ya ölkə əhalisinin təqribən 21 faizini əhatə edən sosial təminat sisteminin gücləndirilməsi və onun uzunmüddətli inkişafı üçün etibarlı, dayanıqlı əsasların formalaşdırılması ilə bərabər, korrupsiya, rüşvət, sui-istifadə, süründürməçilik hallarından uzaq, tam şəffaf və sosial ədalət prinsipini bütün dolğunluğu ilə təcəssüm etdirən və vətəndaş məmnunluğuna səbəb olan sosial təminat sisteminin qurulması islahatlar paketinin əsas hədəfini təşkil edir. Hazırda ölkədə sosial müdafiə sistemi vasitəsilə 1 milyon 309 min nəfər əmək pensiyası, 509 min nəfər müxtəlif növ müavinətlər, 64 min nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdlərini, 50,2 min ailənin 200 min 200 nəfər üzvü isə ünvanli sosial yardım alır. Onlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hər ay 340 milyon manatdan çox vəsait ödənilir.

Sahil Babayev deyib: "Mahiyyətinə və miqyasına görə əhalinin sosial müdafiəsinin mərkəzi həlqəsi olan və pensiya sisteminin gəlir və xərclərinin məcmusunu, pensiya xərclərinin resurs təminatını ehtiva edən Dövlət Sosial Müdafiə Fondunun büdcəsi növbəti ildə zəruri maliyyə vəsaitlərini formalaşdıraraq ölkə əhalisinin 13,1 faizini təşkil edən əmək pensiyaçıları üzrə sosial öhdəliklərin icrasında mühüm rol oynayacaq. Fondun 2019-cu il üçün büdcə layihəsinin tərtibatı çoxfaktorlu proqnozlaşdırma modelinə söykənir. Bu məqsədlə cari ildə ölkə iqtisadiyyatının inkişaf meyilləri və növbəti illərdə sosial iqtisadi inkişafın əsas proqnozları, 2017-ci il və 2018-ci ilin ötən dövrü üzrə Fondun büdcəsinin icrasının nəticələri, 2018-ci ildə əhalinin gəlirləri və məşğulluq göstəriciləri, demoqrafik inkişaf tendensiyaları, eləcə də pensiya təyinatı şərtlərində aparılmış kompleks islahat tədbirlərinin təsirləri nəzərə alınmaqla sığorta pensiya sisteminin parametrlərinin dəyişməsi əsas götürülüb".

S.Babayev qeyd edib ki, Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il üçün xərcləri 3 milyard 928 milyon manat proqnozlaşdırılır. Bu da cari ilin müvafiq proqnoz göstəricisindən 349 milyon manat və ya 9,8 faiz çoxdur. Növbəti ildə əhaliyə ödənişlər Fondun xərclərinin 97,6 faizi səviyyəsində və ya 3 milyard 835 milyon manat proqnozlaşdırılır. Xərclərdəki dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verən nazir deyib: "Əmək pensiyaları üzrə 336 milyon manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər üzrə 3,8 milyon manat, digər xərclər üzrə isə 9,5 milyon manat artım nəzərdə tutulur. 2019-cu ildə əmək pensiyaları üzrə xərclər əhaliyə ödənişlərin 97,6 faizini təşkil edərək 3 milyard 743 milyon manat proqnozlaşdırılır. Növbəti ildə əmək pensiyalarının orta aylıq məbləği 6,3 faiz artaraq 241 manat təşkil edəcək. Yaşa görə əmək pensiyası isə daha da artacaq və orta göstərici 272 manata çatacaq".

Diqqətə çatdırılıb ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar isə cari ilin proqnoz göstəricisindən 5 milyon manat çox olmaqla 65 milyon manat proqnozlaşdırılır. Nazir qeyd edib ki, pensiya qanunvericiliyinə edilmiş konseptual dəyişikliklərdən biri də tam sığorta prinsipinin tətbiqi şəraitində pensiya sisteminin maliyyələşməsində öhdəliklərin maliyyə mənbələri əsasında fərqləndirilməsi ilə bağlıdır. Bu əsasda pensiya xərclərinin iki istiqaməti üzrə dövlət büdcəsinin öhdəlikləri müəyyən edilib. Birinci istiqamət 1992-ci ilə qədər olan dövr ərzində əmək pensiyaçılarının iş stajı, ikinci istiqamət isə əmək pensiyalarına əlavələr. Hər iki istiqamət üzrə dövlət büdcəsinə maliyyələşdirmənin tam təmin edilməsi, əlbəttə ki, sığorta təminatı sisteminin inkişaf etdirilməsinə və sosial sığorta sisteminin potensialının tam gücləndirilməsinə imkan verəcək.

O, qeyd edib ki, 2019-cu ildə dövlət büdcəsi öhdəliklərdən Fonda yönəldilən vəsait 1 milyard 502 milyon manat planlaşdırılıb. Bu isə 2018-ci ilin büdcə göstəricisi ilə müqayisədə 202 milyon manat və ya 15,6 faiz artım deməkdir. İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, Azərbaycan Respublikasının Milli Məclisindən daxil olan "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" qanun layihəsinə Hesablama Palatası tərəfindən "Hesablama Palatası haqqında" Qanunun 7-ci və "Büdcə sistemi" haqqında Qanunun 15-ci maddəsinin tələblərinə əsasən rəylər hazırlanaraq təqdim edilib. "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" qanun layihəsinin mövcud qanunvericiliyin tələblərinə uyğun tərtib edildiyini nəzərə almaqla Hesablama Palatasının Kollegiyası layihəyə müsbət rəy verib.

Diqqətə çatdırılıb ki, qanun layihəsi Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tədbirlər Planı"na əsasən tərtib edilib və layihənin strukturu və ümumi göstəriciləri qanunvericiliyin müəyyən etdiyi tələblərə uyğun hazırlanıb. Bununla yanaşı, Hesablama Palatasının hər il üçün müvafiq rəyində göstərilməsinə baxmayaraq, qanun layihəsini əsaslandıran və dəstəkləyici sənədlər tam şəkildə əlavə edilməyib.

"Ümumiyyətlə Hesablama Palatası Fondun büdcəsinin layihəsi ilə bağlı iki istiqamətdə tədbirləri məqsədəmüvafiq hesab edir. Dövlət büdcəsində olduğu kimi, Fondun büdcəsinin də əsas parametrlərini arqumentləşdirən məlumatlar, izahlar və gözlənilən nəticələr barədə müvafiq ətraflı sənədlərin qanun layihəsinə əlavə edilməsi dövlət maliyyəsində şəffaflığın artırılması və məlumatlılıq səviyyəsinin yüksəldilməsini təmin etmiş olar",- deyə Hesablama Palatasının sədri söyləyib.

Bildirilib ki, eyni zamanda, Fondun büdcəsinin hazırlanması ilə bağlı yanaşmanın müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi təklif olunur. Belə ki, gəlirlərin strukturunun yalnız büdcə və qeyri-büdcə bölgüsü əsasında verilməsi ilə bağlı ənənəyə də yenidən baxılmalıdır. Hesab edirik ki, gəlirlərin strukturunun büdcə, dövlət müəssisələri, publik hüquqi şəxslər, bələdiyyə və sair kimi verməklə həm ödəyicilər haqqında dolğun təsəvvür yaradarıq, həm də şəffaflığı artırmış olarıq. Bu, həm də daxilolmanın mənbələrini konkretləşdirər.

Nəzərə alınmalıdır ki, büdcə təşkilatları üzrə ödəmələrin vaxtında daxil olmamasının subyektiv səbəblərdən baş verməsi inzibatçılıq məsələlərinə diqqətin artırılması zərurətini göstərir. Obyektiv səbəblərə gəldikdə isə həmin vəsaitin ilin sonunda tam məbləğdə daxil olmayacağını indi də qeyd etmək olar. Belə ki, vakansiyaların mövcudluğu, əmək qabiliyyətinin itirilməsi və s. kimi hallar dövlət büdcəsindən maliyyələşən təşkilatlardan proqnozlaşdırılan vəsaitin 100 faiz icra edilməməsi üçün obyektiv amillərdir və bu, dövlət öhdəliyinin artırılması kimi qəbul edilməməlidir.

Palata sədri qeyd edib ki, Fondun 2019-cu ildə xərci 3,9 milyard manat nəzərdə tutulub ki, bu da cari ilin proqnoz göstəricisindən 9,8 faiz çoxdur və həmin vəsaitin 97,6 faizi əhaliyə ödənişlərdən ibarətdir. Hesablama Palatası məlumat bazasının təhlili ilə əmək pensiyalarının və bəzi müavinətlərin ödənilməsində cari ildəki və növbəti ildə yarana biləcək riskləri müəyyən edib. Belə ki, 2017-ci ilin 1 iyul tarixindən qüvvəyə minmiş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanunla müəyyən edilən dəyişikliklər pensiyaların maliyyələşdirilməsi baxımından əlavə maliyyə xərclərinin aparılmasına səbəb olub və bu xərclər 2018-ci ilin büdcəsində nəzərə alınmayıb. Bu, cari ilin ötən dövrü üzrə vəsaitlərin icra səviyyəsində də əks olunur. Qanunvericiliklə müəyyən edilmiş indeksləşmə səviyyəsi, həmçinin cari ilin tendensiyaları növbəti il üçün əmək pensiyalarının ödənilməsi ilə bağlı əlavə vəsaitin nəzərdə tutulmasına ehtiyac olduğunu göstərir.

Eyni yanaşma məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağı müavinətlərə də şamil olunmalıdır. Belə ki, növbəti ildə bu istiqamətdə nəzərdə tutulmuş artım həmin müavinətin ödənilməsi üçün əsas olan əməkhaqqının artım tempi göstəricisindən nəzərəçarpacaq dərəcədə geri qalır.

Sonra deputatlar qanun layihələri haqqında fikir və təkliflərini səsləndiriblər. Daha sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda təsdiqlənib. "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə məlumat verən Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycanda yaşayış minimumu növbəti ildə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat məbləğində müəyyən edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə danışıb. Qeyd edib ki, növbəti ildə ehtiyac meyarının 143 manat müəyyən edilməsi təklif olunur. Sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəfiqə Kamalqızı***

# Qrant missionerlərinin "dövlət sevgisi" haradan qaynaqlanır?



Bəhruz QULİYEV,
"SƏS" qəzetinin baş redaktoru

*Bu günlərdə özünü "hüquq müdafiəçisi" kimi təqdim edən Aslan İsmayılov sosial şəbəkə vasitəsi ilə parlamentdə müstəqil deputat kimi fəaliyyət göstərən Vahid Əhmədovun adından ilginc sitat gətirib və bu sitatın altındakı şüuraltı ifadələr diqqətimi cəlb etdi. Demə ki, son illər ərzində Azərbaycanın azad və müstəqil mediasına qara yara kimi düşmüş Arif Əliyev, Elçin Şıxlı və Qulu Məhərrəmli dövlətçiliyə və dövlət rəhbərliyinə qarşı xoş münasibətləri olan kəsləriymişlər və s. Əslində, belə bir ifadə ilə çıxış edən Vahid Əhmədovdan bənzər "təcəssümü" nümayiş etdirməsi və ya tərifi səsləndirilməsi, onun ifadələrinin məhz (!) Aslan İsmayılov tərəfindən sitat olaraq ictimailəşdirilməsi açığını desək, təəccüb doğurmadı...*

### Vahid Əhmədov yaddaşını təzələməlidir

Əlbəttə ki, əgər bu deputatın keçmişinə qısa nəzər salarsaq, ümumiyyətlə, təəccüb hissləri yox olar. Kim olub Vahid Əhmədov? Vaxtilə radikal müxalifət düşərgəsində təmsil olunan və hakimiyyətə qarşı ümummüxalifət koalisiyasında yer alan, düşərgədaxili qruplarda var-gəl edən bir şəxs. Sonradan "siyasi baxışlarının" anidən dəyişməsi yəqin ki, onun parlamentdə təmsil olunması ilə əlaqəlidir.

O cümlədən, yaxşı olardı ki, Vahid Əhmədov məlum Quba hadisələrini və bu hadisələrdə baş vermiş iğtişaşlardakı "rolunu" da xatırlayardı. Əgər xatırlaya bilmirsə, həmin vaxt mediada gedən yazı və məqalələri incələyərək, yaddaşını təzələyə bilər hər halda...

Bir sözlə, keçmişi bəlli və daxilində hakimiyyətə antipatiyası olan bir deputatın uzun illər xarici fondlarla işləyib və ölkəmizin maraqları əleyhinə yönəlmiş layihələr müqabilində qrantlar yeyən və silən insanları tərif edib, "dövlət başçısını sevən şəxslər" qismində təqdim etməsi fikrinin arxasındakı məqamlar da bəlli olmağa başlayır. Söz yox ki, biz bu məsələdə elə Vahid Əhmədovun dilindən təriflənən şəxslərin də yaxın-uzaq həyatlarına qısa ekskurs edə bilərik.

### Elçin Şıxlı Leyla Yunusla eyni baxışdan çıxış edərək, Rauf Mirqədirovun dövlətə xəyanət ittihamı ilə həbs edilməsini dövlətin "təzyiqi" adlandırmışdı...

Elçin Şıxlı uzun illərdir ki, "Azərbaycan Jurnalistlər Birliyinin" sədri olaraq, ümumilikdə jurnalistikanın fəaliyyətinə sıfır həddində öz "töhfələrini" verir. O cümlədən, "Ayna"-"Zerkalo" qəzetlərinin baş redaktoru adı altında xarici təsir dairələrinin əlaltısına çevrilib. Əbəs deyil ki, bu qəzetin vaxtilə Türkiyəyə akkreditə olunmuş müxbiri Rauf Mirqədirov Azərbaycan Cinayət Məcəlləsinin 274-cü maddəsi (dövlətə xəyanət) ilə ittiham olunub və onun barəsində həbs qətimkan tədbiri seçilmişdi.

Hərgah, Vahid Əhmədovun iddia etdiyi kimi, Elçin Şıxlı "dövlət maraqlarına bağlı" biri kimi təqdim olunursa, onun əlinin altında işləyən əməkdaşı nəyə görə dövlətə xəyanət ittihamına "layiq" görülmüşdü? Məsələ çox bəsitdir. Aslan İsmayılovun Vahid Əhmədovun sitatını gətirməsi sadəcə, onlara verilən və icra edilən sifarişin tərkib hissəsidir.

Daha bir faktı diqqətə çatdırmaq istərdim. Baxın, Elçin Şıxlının jurnalisti Rauf Mirqədirov həbs edilər-edilməz, bilavasitə erməni lobbisi və bu lobbi ilə iş birliyi quran xarici təşkilatlardan qrantlar qazanan Leyla Yunusun "Sülh və Demokratiya İnstitutu" dərhal bəyanat yaydı və guya Azərbaycanda medianın sıxışdırılması ətrafında süni ajiotajlar, səs-küylər salmağa başladı. Üstəlik, Elçin Şıxlı da iddia etdi ki, Rauf Mirqədirova qarşı "təzyiqlər" olub və s...

Yaxşı, əgər bu insan həqiqətən də dövlətə və Prezidentə bağlı şəxslərdəndirsə, nəyə görə həmin vaxtlar ortalığı qarışdırmağa cəhd göstərən Leyla Yunusa qarşı əks-ifadələrlə çıxış etmədi? Yəqin ki, bu məsələ müəyyən mənada aydın oldu.

### Rüstəm İbrahimbəyov "Milli Şura"da Qulu Məhərrəmliyə hansı vəzifəni vəd vermişdi?

Yaxud, götürək Qulu Məhərrəmlini. Bu həmin Qulu Məhərrəmli deyilmidir ki, uzun illər Azərbaycan dövlətinin ona verdiyi imtiyazlardan maksimum istifadə edərək, sonradan bu dövlətin maraqlarına qarşı dayanan əks-cəbhədə yer aldı?

Məsələn, uzağa getməyərək, 2013-cü ilin prezident seçkilərini xatırlayaq. Müxalifətin mədhiyyəçisi kimi tanınan Qulu Məhərrəmli həmin vaxt "Milli Şura"nın aparıcı "simalarından" birinə çevrilərək, qurumun o zamankı sədri Rüstəm İbrahimbəyovun sözçüsünə çevrilmişdi. Yeri gəlmişkən, ona adıçəkilən qurumdakı həmin vəzifəni məhz AXCP sədri Əli Kərimli təqdim etmişdi. Nədir ki, həmin vaxtlar Rüstəm İbrahimbəyov Qulu Məhərrəmliyə hakimiyyətə yiyələnən kimi AzTV-nin sədri postunu verəcəkmiş. Məgər bu barədə faktlar az deyilmi? Məgər Qulu Məhərrəmli elə-belə, öz xoşu ilə "Milli Şura"ya gedərək, fəaliyyətini oradakı "liderlərinə" peşkəş etmişdi? Əlbəttə ki, xeyr. Qulu Məhərrəmlinin də həmin vaxtlardakı tamahkarlığı onun dövlət və xalq maraqlarına qarşı çıxan maraqlara qurban verilmişdi.

Onun barəsində əlimizdə olan adi bir faktı xatırlayaq. Qulu Məhərrəmli guya jurnalist təəssübkeşliyi göstərərək, Türkiyədə Azərbaycanın maraqlarını xarici kəşfiyyata satmaqla məşğul olan Rauf Mirqədirovun alovlu müdafiəçisinə çevrildi. Gah "Meydan TV"-də, ga "Azadlıq" qəzetində, gah da "Azərbaycan saatı" adlı erməni lobbisinin maliyyələşdirdiyi verilişlərə çıxan bu "vətənsevər təəssübkeş", nəticədə müəyyən istəyinə nail olmağı bacardı. Ona bu işlərinə görə maliyyə, qrant axınları gəlməyə başladı. Çünki bu sifarişlər bilavasitə ona verilmişdi. Sosial şəbəkədə də fəal olan Qulu Məhərrəmli görün dövlətə xəyanət üstündə həbs edilən Mirqədirov barədə nə yazır. "Politoloji təhlilləri və tənqidi yazıları ilə uzun illər jurnalistikamızın üzünü ağ eləmiş, geniş oxucu məhəbbəti qazanmış istedadlı həmkarım Rauf Mirqədirovu 6 il azadlıqdan məhrum etmək barədə məhkəmənin çıxardığı hökm çox üzücüdür...".

### Düşünürəm ki, təkcə həmin ifadələr artıq hər şeyi özü-özlüyündə yerbəyer edir...

Arif Əliyevin rəhbərlik etdiyi "Yeni Nəsil" "jurnalistlər birliyinin" bu ad altında qazanc mənbəyi kimi istifadə olunması Sorosun ona göndərdiyi maliyyə qaimələrində öz əksini tapmaqdadır.

Arif Əliyevə gəldikdə isə, artıq onun barəsində son bir neçə günlərdir ki, aparıcı media qurum rəhbərlərinin, sadə jurnalistlərin və sağlam düşüncəli ictimai rəyin fikirlərini yenidən nəzərlərdən keçirmək kifayət edər. Media aləmində "qrantoyed", yəni qrantyeyən imicini qazanmış Arif Əliyev həm də kifayət qədər uğursuz bir şəxs kimi təqdim olundu. Hətta dövlət maraqları əleyhinə əldə etdiyi qrantlarını belə, verilən sifarişlər əsasında qurmağı bacarmadı. Aldığı qrantları müqabilində belə, adi bir qəzeti çıxarmağı bacarmayandan zatən, başqa müsbət nə isə gözləmək olmaz. Həmçinin, bu gün onun rəhbərlik etdiyi "Yeni Nəsil" "jurnalistlər birliyinin" bu ad altında qazanc mənbəyi kimi istifadə olunması Sorosun ona göndərdiyi maliyyə qaimələrində öz əksini tapmaqdadır. Xatırlatmaq mümkündür ki, məhz bu fondun maliyyələşdirdiyi "Gün Səhər" qəzeti də 2005-ci ildə inqilabçı, xəyanətkar və dövlətimizə qarşı hazırlanmış layihəni Arif Əliyevin icrasına vermişdi. Bu, həmin dövrlər idi ki, post-sovet ölkələrində "narıncı inqilablar" tüğyan edirdi və bu layihədə Azərbaycan da yer alırdı. Lakin hər zaman olduğu kimi, sarsılmaz xalq-iqtidar sarsılmaz birliyi o vaxtlarda da bu kimi xain missiyanın icrasına yol vermədi.

İndi də istər ona, istərsə də yuxarıda adları çəkilən "Media Klubu" üzvlərinə uzun illərdir əməkdaşlıq etdikləri Soros fondu, eləcə də digər xarici media fondları tərəfindən qərəz yayma kampaniyası aparmaları üçün sifarişlər verilib. Əbəs deyil ki, bu sifarişlərin realizə edilməsi üçün kifayət qədər külli vəsait ayrılıb. Belə olmasa idi, Aslan İsmayılov ortaya çıxmazdı və parlamentin müstəqil deputatı Vahid Əhmədovdan (!) sitat gətirib saxta, qondarma vətənsevərlik, dövlətsevərlik mədhiyyələrini ictimailəşdirməzdi.

### Günahsız azərbaycanlılara ölüm hökmünün icrası tələbini edən Aslan İsmayılov bu gün "Media Klubu"nun müdafiəçisinə çevrilib

Yeri gəlmişkən, Aslan İsmayılovun bu məsələdə canfəşanlığı da ümumilikdə heç bir reallığa söykənmir, əlbəttə ki, bir reallıqdan başqa. 1988-ci ildə baş vermiş və erməni təxribatı nəticəsində törədilmiş Sumqayıt hadisələri zamanı SSRİ prokurorluğunu məsul vəzifəlisi kimi o, bu təxribatlar zamanı günahsız azərbaycanlılar barədə ölüm qərarının verilməsini tələb etmişdi. Beləliklə, günahsız azərbaycanlılara ölüm hökmünün icrası tələbini edən Aslan İsmayılov bu gün "Media Klubu"nun müdafiəçisinə çevrilib. Məgər bu fakt da normal düşüncəli insanlara heç nəyi demirmi?!

İndi necə ola bilər ki, bu adamlar dövlətinə, millətinə, xalqına sədaqətli olsunlar və üstəlik, həmin o Vahid Əhmədov da durub desin ki, "Elçin Şıxlı, Arif Əliyev və Qulu Məhərrəmli dövlətçiliyi və Prezidenti istəyən adamlardır", o cümlədən, onların öz "istəklərini" izhar etmələrinə guya ki, rəhbərlik səviyyəsində kimlərsə mane olurmuş və s.?!

Ümumiyyətlə, adları çəkilən şəxslərin dövlət başçısına səslərini çatdırmaq istəyi heç də medianın vəziyyəti ilə bağlı deyil. Onlar sadəcə, bu sahənin idarəçiliyi və istədikləri istiqamətdə istifadə etmələri arzusu ilə alışıb-yanırlar. Daha dəqiq desəm, istər Arif Əliyev olsun, istərsə də, onun timsalındakı digər adları çəkilənlər -vaxtilə onların hərəsinin bir təşkilatı var idi və onlar həmin saxta media təşkilatları vasitəsi ilə xarici maliyyə mənbələrindən maddi vəsaitlər əldə edirdilər. Bu baxımdan, adları çəkilənlərin mikroskopik portretlərini cızarkən, görünməyən maraqlarını ifşa edərkən, ortaya çıxan fakt budur - onlar Azərbaycan dövlətinin maraqları üçün deyil, məhz özlərinin və arxalarında dayananların məlum mənafelərinin qorunması üçün dəridən-qabıqdan çıxırlar. Fəqət, fakt budur ki, nə qədər çox hay-haray salacaqlarsa, daha çox ifşa olunaxaqlar. Çünki sadalanan faktlar hələ ki, səthi yanaşma idi. Sadəcə, səthi faktlar bu missionerlərin pərdə arxasındakı "simaları" tam şəkildə ortaya qoyursa, görün digər sübutlar hansı reallıqları vİctimai rəyə təqdim edə bilər....

## "Avropa siyasi mühitində siyasi korrupsiya araşdırılmalıdır"



"Avropa Parlamentinin (AP) üzvü Eleni Teoxarusun Albaniya Respublikasında da arzuolunmaz şəxs elan olunub. Hesab edirəm ki, Avropa siyasi mühitində siyasi korrupsiya araşdırılmalıdır. Çünki bu şəxslərin fəaliyyəti bilavasitə müvafiq korrupsiya əməlləri ilə bağlıdır". Bunu SİA-ya açıqlamasında millət vəkili Asim Mollazadə deyib.

"Biz Avropa Parlamentində, Avropa Şurasında belə şəxslərin fəaliyyətini birmənalı qiymətləndirməliyik və ciddi araşdırmalar olmalıdır. Təəssüf doğuran amil odur ki, Avropa siyasətçiləri hansısa şirkətlərdən, lobbi qruplardan vəsaitləri alır və nəticədə bu istiqamətdə erməni qrupları Avropa mühitində çox ciddi fəaliyyət göstərirlər. Ona görə də biz bu araşdırmaları tələb etməliyik"-deyə, deputat bildirib. A.Mollazadə əlavə edib ki, qanlı separatçılıq və etnik təmizləməni təşviq edən Eleni Teoxarus kimi Avropa Parlamentinin nümayəndələri öz ölkələrinin, xalqlarının maraqlarından çıxış etmir, erməni lobbisinin, diasporunun siyasətini həyata keçirir: "Əslində Avropa Parlamentində erməni diasporunun yaratdığı korrupsiyanın ciddi araşdırılmasının vaxtı çatıb. Buna həqiqətən böyük bir ehtiyac var. Çünki bir neçə belə qərarlar əslində Avropa İttifaqının siyasətinə ziddir. Tam aydındır ki, bu cür qərarlar arxasında məhz siyasi korrupsiya və erməni lobbisinin fəaliyyəti durur. Eleni Teoxarusun hərəkətləri Avropa Parlamentinin, bütövlükdə Avropa İttifaqının siyasətinə ziddir. Bilavasitə onun erməni diasporu ilə əməkdaşlığı nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərinə səfərləri baş tutur. Bu baxımdan ehtiyac var ki, erməni lobbi qruplarının Avropada apardığı korrupsiya fəaliyyəti ciddi araşdırılsın və ona hüquqi qiymət verilsin".

# Ermənistan diplomatiyasının növbəti məğlubiyyəti

## *Astana sammiti Ermənistanı 2020-ci ilə qədər bu təşkilatda söz sahibi olmaq niyyətini puç etdi*

***Noyabrın 8-də Qazaxıstanın paytaxtı Astanada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçirilən növbəti sammiti Ermənistan diplomatiyası üçün yaddaqalan uğursuz bir tarix oldu. Qeyd edək ki, bu, reallıqdır. Çünki Ermənistan nə qədər ki, işğalçılıq siyasəti aparır bu ölkənin adına ancaq məğlubiyyət yazılmalıdır. Belə ki, Astanada keçirilən zirvə görüşü də bir daha göstərirdi ki, Ermənistan etibarını itirib və üzv dövlətlər bu ölkənin nümayəndəsini təşkilatın idarəçiliyində görmək istəmirlər. Prosedur və rotasiya qaydalarına və əlifba sırası ardıcıllığına uyğun olaraq, 2020-ci ilə qədər baş katib vəzifəsini Ermənistan nümayəndəsi daşımalı idi. Lakin Yuri Xaçaturovun vaxtından əvvəl vəzifədən azad edilməsindən sonra işğalçı ölkənin baş nazir vəzifəsini icra edən Nikol Paşinyan 2020-ci ilə qədər baş katib vəzifəsini Ermənistanda saxlamağa müvəffəq olmayıb. Ermənistanın yeni namizədinin təşkilatın baş katibi olmasına icazə verilməyib.***



Sammitə ev sahibliyi edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev baş katib məsələsində fikir ayrılığının yarandığını qeyd edib. O, rus dili üzrə əlifba ardıcıllığına uyğun olaraq Ermənistandan sonra növbəti baş katibin Belarusdan təyin edilməli olduğunu bildirib. Nəticə etibarilə, Ermənistan üzv olduğu KTMT çərçivəsində də özünü tamamilə təcrid olunmuş vəziyyətinə salıb. Ermənistan rəhbərliyi İrəvan küçələri ilə dövlət başçıları səviyyəsində keçirilən zirvə toplantılarını qarışıq saldığını və qeyri-peşəkarlığını növbəti dəfə nümayiş etdirib. Sammitin video-yazıları da Ermənistan nümayəndə heyətinin müzakirələrdən narazı qaldığı aydın şəkildə göstərir.

### Ermənistan ikibaşlı və xəyanətkar geosiyasi oyunlarla fiaskoya doğru

Əslinə baxanda bu belə də olmalı idi. Çünki bu günə kimi Ermənistana rəhbəlik edən rəhbərlərin səviyyəsiz xarici siyasətində işğalçılıq məqsədi olub. Və nə qədər ki, bu siyasətdən əl çəkilməyəcək, bu uğursuzluq son anda dünya xəritəsitndən silinməsinə belə gətirib çıxaracaq.

Elə bu səbədən də Ermənistanın bütün səylərinə baxmayaraq, erməni generalı nümayəndəsi baş katib ola bilmədi. Əsas motiv bir il ərzində erməni baş katibin layiqincə işləyə bilməməsi oldu.

Sözügedən məsələ ilə bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə qeyd edib ki, baş vermiş hadisə göstərdi ki, Ermənistanın beynəlxalq təşkilatlarda nüfuzu aşağıdır, onun prinsipial xətti ümumi maraqların əksinə gedir: "Əsas məsələ cinayətkar hakimiyyəti dəyişməkdən başqa, həm də onun siyasi xəttini dəyişməkdir. Ermənistan isə bunu etməyə çəkinir. Deməli, Ermənistanın ümummilli böhranı daha da dərinləşəcək".

Deputat qeyd edib ki, işğalçı ölkə parlamentinin müxalifətdən olan vitse-spikeri Eduard Şarmazanov baş nazir Paşinyanı Ermənistan üçün KTMT-də baş katib postunu qoruyub-saxlaya bilməməkdə ittiham edib. Daha sonra onun diqqətçəkən etirafla çıxış etdiyini deyən A.Mirzəzadənin sözlərinə görə, erməni vitse-spiker bildirib ki, "korrupsiya ilə mübarizə aparmaq olar, amma bunu Ermənistan və Qarabağın təhlükəsizliyi hesabına etməyin".

Göründüyü kimi, Ermənistan Azərbaycana qarşı təcavüzkar müharibədə həmişə ən son güvən yeri kimi təsəvvür etdiyi KTMT-də sarsıdıcı zərbə aldı və hörmətsiz vəziyyətdə təşkilatın bir küncünə atıldı. Ermənistan ikibaşlı və xəyanətkar geosiyasi oyunlarla uğursuzluğa düçar oldu, Azərbaycan isə regionda Rusiyanın ən etibarlı strateji tərəfdaşı olmaqla, Azərbaycan diplomatiyası KTMT ilə sonrakı münasibətlərdə daha geniş manevr imkanları qazandı.

### Aleksandr Lukaşeviç: "Ermənistan və Azərbaycan Qarabağdakı gərginliyi azaltmaq üçün əlavə tədbirlər görməlidirlər"

Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviç bildirib ki, Ermənistan və Azərbaycan Qarabağdakı gərginliyi azaltmaq üçün əlavə tədbirlər görməlidirlər: "Atəşkəs rejiminin qorunması ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçilik missiyasının məhsuldarlığını göstərən əsas şərtlərindəndir və həll prosesinin əsas aspektləri üzrə kompromisə doğru irəliləməsi üçün vacib məsələdir. Ermənistanda keçiriləcək parlament seçkilərindən sonra Ermənistan və Azərbaycan arasında təmaslar sıxlaşacaq".

### Astana sammiti Paşinyana yerini göstərdi

Həmişə olduğu kimi, bu dəfə də Nikol Paşinyan öz yerini bilmədi. Bir də quyuya su tökməklə, quyu sulu olmaz. Bir də küçə "demokratı" nə bilir ki, diplomatiya nədir. Elə sammit zamanı onun "yerini" göstərdilər. Bir də sən kimisə geri çağırırsansa, kimisə cəzalandırmaq istəyirsənsə, bu, heç də o demək deyil ki, biz sənin nazınla oturub durmalıyıq. Bu post sənin ölkənə hədiyyə kimi verilməyib. Yəni, Paşinyana açıq-aydın şəkildə deyildi ki, öz yerini bilməlisən. Əgər Ermənistanı təmsil edən baş katibi geri çağırırsansa, çağır. Nə edirsən, et. Amma sənin nümayəndən artıq bu postda olmayacaq və artıq ora digər ölkənin nümayəndəsi seçilib.

Sözsüz ki, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində həyata keçirilir. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük inam bəsləyir və dövlət başçısının həyata keçirdiyi siyasəti tam dəstəkləyir. Azərbaycan əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsini öz firavan və təhlükəsiz həyatında görür və ona görə də əhali Prezidentə inanır və dövlət başçısının ətrafında sıx birləşib. Eyni zamanda, Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Əlbəttə, bu sabitliyə və təhlükəsiz həyat şəraitinə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində nail olunub.

Ermənistan xalqı isə, hələ də bu günə kimi, bu reallığı görə bilmir və nəticədə küçə "demokratı"nın hakimiyyətə gəlməsində nə qədər səhvlərə yol verdiyini anlamırlar. Məhz bu səbədən də, işğalçı ölkədə iqtisadi böhran, xaos dərinləşməkdədir. Xüsusilə, dekabrda keçiriləcək növbədənkənar parlament seçkiləri yaxınlaşdıqca işğalçı ölkədə gərginlik artır. Erməni KİVlərinə görə, keçmiş müdafiə naziri Vigen Sarkisyan qeyd edib ki, o bundan sonra yeni hökumətlə müxalif partiya kimi mübarizə aparacaq. Siyasi ekspertlər hesab edirlər ki, Respublika Partiyasının bu qərarı parlamentdə üstünlüyü ələ almağa çalışan Nikol Paşinyanın planlarını poza bilər. Onsuz da onun vəziyyəti ağırdır. Yenicə buraxılan parlamentdə əsas səs çoxluğu keçmiş hakim partiyanın əlindədir. Yeni Milli Şurada da onlar üstünlüyü ələ ala bilərlər. Bu isə N.Paşinyana ciddi problemlər yaradacaq. Ermənistanın sabiq prezidenti Robert Koçaryanın vəkilləri isə müdafiənin təmin edilməsilə əlaqədar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ediblər. Bildirilir ki, 2008-ci il Dövlət Terrorunun araşdırılması işi üzrə məhkəmə zamanı hakimlərə ciddi təzyiq göstərilib və hətta onların qanuni qərar çıxardıqları təqdirdə barələrində qərəzli ittihamlar səsləndirilib. Üstəlik, sosial şəbəkələrdə Koçaryanın vəkilləri təhdid edilir, hakim dairələr isə onların mühafizəsi üçün heç bir tədbir görmür. Ermənistanın sabiq prezidenti Robert Koçaryan 2008-ci ildə ölkədə konstitusiya quruluşunu zorla devirməkdə ittiham olunur. O həbs edilsə də, sonradan apelyasiya məhkəməsinin qərarı ilə azad olunub. Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanov isə Nikol Paşinyanı səriştəsizlikdə ittiham edib. Onun sözlərinə görə, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında mövqelərinin zəifləməsində günahkar məhz Paşinyandır.

E.Şarmazanov bildirib ki, hərbi birlikdə itirilənlərin əsas günahkarı indiki hakimiyyətdir. Paşinyan bütün günü korrupsiya ilə mübarizə haqqında bəyanat edir, eyni zamanda, ölkənin təhlükəsizliyini qurban verir.

Gürcü ekspert Mamuka Areşidze də Paşinyanın böyük siyasətdə təcrübəsinin olmadığını açıqlayıb. Onun sözlərinə görə, baş nazir səlahiyyətlərini icra edən bu şəxs hər şeyi öz əlinə alıb. O, bir partiyalı parlament yaratmağa çalışır. Amma unudur ki, böyük siyasətdə heç bir təcrübəyə malik olmaması özünü tezliklə göstərəcək.

### Ermənistan bütün müstəvilərdə təcrid və küncə sıxılmış vəziyyətdədir

Azərbaycan Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev yola salmaqda olduğumuz həftə də ölkəmizin xarici siyasəti baxımından intensiv olduğunu bildirib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ölkəmizin haqlı və ədalətli mövqeyinin daha da güclənməsi tendensiyası davam edir. Bütün tərəflər status-kvonun qəbuledilməzliyini etiraf edirlər".

PA rəsmisi vurğulayıb ki, bu günlərdə Astanada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dövlət başçılarının zirvə toplantısı keçirildi. Sammit Ermənistan üçün növbəti uğursuzluqla başa çatdı. Ermənistanın iddialarına və istəklərinə baxmayaraq, təşkilatın baş katibi postu Ermənistandan alındı. Ermənistan bu postu 2020-ci ilə qədər saxlamağa çalışırdı: "Təbii ki, bu KTMT üzv dövlətlərinin qəbul etdiyi qərardır. Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının zirvə toplantısını yaxından izləyib. Sammit nəticəsində qəbul edilmiş sənədlər və yekun bəyanat barədə qeyd götürülüb. Bu qəbildən olan sənədlərdən biri müşahidəçi və tərəfdaş ölkələrin hüquqi statusu barədədir. O ki qaldı Ermənistana, bu ölkənin bütün müstəvilərdə təcrid və küncə sıxılmış vəziyyətdə olması özünü açıq şəkildə nümayiş etdirir. Nəzərə almaq lazımdır ki, məlum səbəblərə görə Ermənistan istisna olmaqla Azərbaycanın KTMT-nin bütün üzv dövlətləri ilə çox sıx dostluq və tərəfdaşlıq münasibətləri var. İkitərəfli və çoxtərəfli müstəvilərdə bu əməkdaşlıq daha da genişləndirilir".

Göründüyü kimi, bütün bunlar bir daha onu göstərir ki, Ermənistanın öz milli maraqlarını beynəlxalq hüquqdan üstün tutmaq cəhdi fiaskoya uğramaqdadır və işğalçı ölkənin beynəlxalq təşkilatlarda nüfuzu aşağıdır, prinsipial xətti ümumi maraqların əksinə gedir. Bu, belə də olmalı idi. Əsas məsələ cinayətkar hakimiyyəti dəyişməkdən başqa, həm də onun siyasi xəttini dəyişməkdir. Ermənistan isə bunu etməyə çəkinir. Bu isə onu deməyə əsas verir ki, Ermənistanın ümummilli böhranı daha da dərinləşəcək.

**A.SƏMƏDOVA**

# Madrid beynəlxalq konfransı dinlərarası dialoqun təşviqinə, sülh və qarşılıqlı anlaşmaya mühüm töhfələr verən səmərəli müzakirə platforması kimi

*Müasir beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir. Hazırda xalqlar və milli dövlətlər ayrı-ayrı çağırışlarla üzləşirlər, meydana çıxan təhdidlər isə təkcə bir xalqı, dövləti və regionu əhatə etmir, bütövlükdə bəşəriyyətə qarşı yönəlir. Xüsusilə də, müxtəlif coğrafi məkanlarda - ayrı-ayrı regionlarda və ölkələrdə dini zəmində qarşıdurmaların baş verməsi dünya xalqlarını yeni təhlükələrlə qarşı-qarşıya qoyur. Dünyada dini zəmində ciddi kataklizmlərin yaşandığı, xaos və anarxiya mühitinin hökm sürdüyü bir şəraitdə sivilizasiyalararası dialoqun təmin olunması, multikulturalizmin, tolerantlığın təbliği mühüm əhəmiyyətə malikdir. Bunun üçün isə dinlərarası dialoqun təşviq və təmin olunması strateji zərurət kimi ortaya çıxır.*

Doğrudur, müxtəlif mərkəzlərin radikalizm və terrorizmi təbliğ etməsi, ayrı-ayrı xalqların, milli dövlətlərin həmin mərkəzlər tərəfindən hədəfə alınması bütövlükdə dinc birgəyaşayışa, tolerantlıq ənənələrinin möhkəmlənməsinə və multikultural dəyərlərin təbliğinə ciddi əngəllər yaradır. Ona görə də terrorizm, radikalizm və ekstremizmə qarşı effektiv mübarizə mexanizminin formalaşdırılması üçün səmavi dinlərin sülh fəlsəfəsi və həmrəylik amili müstəsna önəm kəsb edir. Bunun üçün isə dinlərarası dialoq platformalarının yaradılması xüsusi əhəmiyyətə malikdir.

## Dinlərarası dialoq sülhü və qarşılıqlı anlaşmanı təmin edən mühüm vasitədir

Tolerantlıq nümunəsi, beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan, dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycanın həm müxtəlif tədbirlərə ev sahibliyi etməsi, həm də dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi sivilizasiyalararası dialoqun genişləndirilməsinə, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsinə mühüm töhfələr verir. Bu gün Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda keçirilən tədbirlər sayəsində dinlərarası dialoq ideyası və məsələsi beynəlxalq miqyasda aktual müzakirə predmetlərindən birinə çevrilib. Xüsusilə də, Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkil etdiyi tədbirlər beynəlxalq aləmdə, həmçinin ayrı-ayrı Avropa ölkələrində böyük rezonans doğurur. Belə tədbirlərdən biri də artıq ənənə halını almış İspaniyanın paytaxtı Madrid şəhərində "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda keçirilən beynəlxalq konfransdır.

Əvvəla qeyd etmək lazımdır ki, Madrid beynəlxalq konfransına maraq həddindən artıq böyük idi. Tədbirdə yerli dini və etnik icmaların nümayəndələri iştirak edirdilər. Konfransda Azərbaycanı hökumət üzvləri, Milli Məclisin deputatları, tanınmış elm və din xadimləri, habelə Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete və digərləri təmsil edirdilər. Tədbir Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), İspaniyanın Ədliyyə Nazirliyinin və Evsen Fondunun birgə təşkilatçılığı ilə keçirildi.




Konfransda səsləndirilən fikirlər müasir dövrdə dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya fundamental töhfələrini bir daha ortaya qoydu. Evsen Fondunun rəhbəri Eli Evsen tədbirdə çıxış edərək bildirdi ki, bu gün insanların qarşısında gənclərin sağlam gələcəyinin təmin edilməsi əsas vəzifə kimi dayanır. O qeyd etdi ki, bunun üçün bütün dinlərin nümayəndələrinin birgə fəaliyyət göstərməsi olduqca önəmlidir: "Biz gənclərə düzgün yol göstərməli, təhsil almalarını təmin etməliyik. Yalnız savad qazanmaqla, təhsil almaqla sağlam gələcək təmin edilə bilər. Bu gün bütün dünyada təriqətlərarası münaqişələr mövcuddur. Bunu inkar etmək olmaz. Ancaq biz müqəddəs bir amal - sağlam gələcək naminə bir olmalıyıq".

İspaniya Konstitusiyasının 10-cu maddəsində dini və şəxsiyyət azadlığının təsbit edildiyini bildirən bu ölkənin ədliyyə nazirinin müşaviri Manuel Xesus Dols isə diqqətə çatdırdı ki, dinlərarası əməkdaşlıq bugünkü dünya üçün olduqca vacibdir. O qeyd etdi ki, bütün dünyada mövcud dinlərə qarşılıqlı hörmət göstərilməlidir. Yalnız qarşılıqlı hörmət və birgə fəaliyyətlə mövcud problemləri həll edə bilərik.

## Allahşükür Paşazadə: İspaniya dinlərin, sivilizasiyaların qovuşduğu bir məkandır

Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına salamlarını çatdıran Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Yer üzündə yaşayan insanların bir-birilərinə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşamalarının Uca Yaradanın ən böyük tövsiyəsi olduğunu söylədi. "Bu barədə müqəddəs Kitabımız "Qurani-Kərim"də buyurulur: "Yer üzü (iman və ədalətlə) islah olunduqdan sonra orada fəsad törətməyin". Dinamik inkişafda olan, sürətlə dəyişən dünyada son zamanlar cərəyan edən hadisələr, təəssüf ki, dini və milli zəmində dözümsüzlük, qarşıdurma halları və ekstremizmin tüğyan etməsi ilə müşayiət olunur. Planetimizin müxtəlif yerlərində törədilən terror aktları, insan qırğını, maddi və qeyri-maddi mədəni irsin məhvi, separatizm, ksenofobiya, islamofobiya, antisemitizm təzahürləri, heç şübhəsiz ki, sivilizasiyalar arasında qütbləşməni dərinləşdirir, dinlərarası və millətlərarası dialoqa ciddi zərbə vurur. Yaşanan böhran və faciələrə baxmayaraq, şükürlər olsun ki, dünyamızı məhvərindən çıxmağa qoymayan əbədi mənəvi dəyərlər mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi istər "Multikulturalizm İli", istər "İslam Həmrəyliyi İli" məhz bu məramlara xidmət edir. Dünyanın bir sıra ölkələrində həyata keçirdiyimiz beynəlxalq tədbirlər, o cümlədən bugünkü ənənəvi, sayca üçüncü beynəlxalq Madrid konfransı da bu amallara xidmətin nümunəsidir. Tarix boyu Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan bu gün dövlətimizin başçısının qlobal missiyası sayəsində dünyada gedən proseslərə özəl, dəyərli töhfəsini - multikulturalizmin real modelini təqdim edir", - deyən Allahşükür Paşazadə vurğuladı ki, İspaniya dinlərin, sivilizasiyaların qovuşduğu bir məkandır.

## Madridin baş yepiskopu Karlos Osoro: Dinlər arasında divarlar hörmək yox, onları aradan qaldırmaq lazımdır

Albaniyanın keçmiş kardinalı Ernest Simoni bu gün dünyanın bir çox bölgələrində münaqişələrin olduğunu xatırladaraq bütün insanların əhalisi çətin şəraitdə yaşayan bu bölgələrə yardıma səslədi. Madridin baş yepiskopu Karlos Osoro bütün dinlərdə sabitliyin, sülhün əsas tutulduğunu qeyd edərək insanların heç də hər zaman bu dəyərlərə sadiq qalmadıqlarını təəssüflə bildirdi. O diqqətə çatdırdı ki, dinlər arasında divarlar hörmək yox, onları aradan qaldırmaq lazımdır. Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin baş katibi Feysəl bin Müəmmər isə dünyada islamofobiyanın mövcud olduğunu xatırlatdı. O qeyd etdi ki, bu yanlış yanaşmaya qarşı sağlam mübarizənin aparılması vacibdir. Bunun üçün yalnız İslam dininə mənsub insanlar deyil, digər dinlərin nümayəndələri də birgə səy göstərməlidirlər.

## Siyavuş Novruzov: Dini azadlıq olmadan digər azadlıqlardan danışmağa dəyməz

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov dövlət-din münasibətlərində qanunvericiliyin rolu mövzusunda çıxış edərək bildirdi ki, dinlərarası dialoq sivilizasiyaların da inkişafına təkan verir: "Dini azadlıq olmadan digər azadlıqlardan danışmağa dəyməz. Azərbaycan Respublikasının Konstitusiyasında dini azadlıq tam təsbit edilib. Azərbaycan Prezidenti tərəfindən ölkəmizdəki dini konfessiyalara diqqət, qayğı göstərilir. Bugünkü konfransda Azərbaycanda yaşayan bütün dini icmaların nümayəndələrinin iştirakı bir nümunədir".

## Abel Məhərrəmov: Bəşəriyyət nə qazanıbsa, sülhün hesabına qazanıb. Münaqişə, müharibə cəmiyyətə yalnız zərər verir

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov çıxış edərək bildirdi ki, bu gün bütün cəmiyyətlər üçün ən vacib məsələlərdən biri tolerantlığı qorumaqdır. Bəşəriyyət nə qazanıbsa, sülhün hesabına qazanıb. Münaqişə, müharibə cəmiyyətə yalnız zərər verir. Dünyada iki yüz dövlət, beş min etnos var. Bu xalqlar hamısı bir yerdə, bir dünyada mehriban yaşamalıdırlar. Akademik dini elmi əsaslarda öyrənmək və dərk etməyin məhz tolerantlıq ənənələrini möhkəmləndirdiyini vurğulayaraq ölkəmizdə ali təhsil müəssisələrində də tolerantlığın təbliğ və tədris edildiyini bildirdi.

## Əli Ərbaş: İslamofobiya sosial ədalətsizlikdir

Bu gün dünyada bir çox sosial ədalətsizliklərin olduğunu bildirən Türkiyə Respublikasının Diyanət İşləri Başqanı Əli Ərbaş isə "bu gün dünyada mövcud olan sosial ədalətsizliklərdən biri də aclıqdır. Hər 3 saniyədə bir insan aclıqdan ölür. Sosial ədalətsizliklərdən digəri isə islamofobiyadır. Bu, çox qorxulu problemdir. Ona əsasən Avropa ölkələrində rast gəlinir. İslamofobiyanı dəstəkləyən qüvvələr terror təşkilatları yaradır, müsəlman ölkələrində insanları öldürür, faciələr törədirlər", - deyə vurğuladı.

Moskva şəhəri və "Moskovskiy Muftıyat" Mərkəzi Regionu müsəlmanlarının Ruhani İdarəsinin müftisi Albir Krqanov: Dünyada İslam dininə qarşı mövcud olan ikili standartlar aradan qaldırılmalıdır.

Moskva şəhəri və "Moskovskiy Muftıyat" Mərkəzi Regionu müsəlmanlarının Ruhani İdarəsinin müftisi Albir Krqanov dünyada İslam dininə qarşı mövcud olan ikili standartlardan danışdı. O bildirdi ki, belə yanaşmaları aradan qaldırmaq üçün İslam dininə mənsub insanlar bir olmalıdırlar.

Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafı, multikulturalizm və tolerantlığın təbliği kontekstində strateji əhəmiyyətə malikdir.

Konfransda bütün dinlərin mahiyyətində və fəlsəfəsində sülh, tolerantlıq və qarşılıqlı anlaşmanın olduğu xüsusi olaraq diqqətə çatdırıldı. Dini zəmində zərərli çağırışların və radikal-ekstremist hərəkətlərin yolverilməz olduğu, bu cür neqativ halların aradan qaldırılması üçün dinlərarası dialoqun xüsusi önəminin vurğulandığı tədbirdə birgə - koordinasiyalı fəaliyyətin mühüm əhəmiyyətə malik olduğu qeyd edildi.

Minə yaxın nümayəndənin iştirak etdiyi tədbirin ikinci hissəsi bədii proqramla başladı və bədii hissədə Azərbaycanın xalq mahnısı "Sarı gəlin" ifa edildi.

## Əli Evsen: Bu gün insanların qarşısında duran əsas vəzifə gələcək nəsillər üçün daha etibarlı, daha parlaq gələcək qurmaqdır

Evsen Fondunun rəhbəri Əli Evsen tədbirdə çıxış edərək bildirdi ki, bu gün insanların qarşısında duran əsas vəzifə gələcək nəsillər üçün daha etibarlı, daha parlaq gələcək qurmaqdır. Bunun üçün isə dinlərarası və sivilizasiyalararası dialoqu inkişaf etdirmək lazımdır. Gənclərimizin ziyanlı təsirlərə düşməsinin qarşısını almalı, onları doğru yola yönəltməliyik. İspaniya Ədliyyə Na-

zirliyinin nümayəndəsi Pablo Kasado dialoq və qarşılıqlı anlaşmanın dünyamızdakı problemlərin həlli baxımından çox önəmli olduğunu bildirdi. O, din xadimlərinin bu işdə daha yaxından iştirakının vacibliyini vurğuladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qeyd etdi ki, tarix boyu Şərq ilə Qərb arasında İslam dünyasının əsas mədəni, dini, sivilizasiya mərkəzlərindən olan Azərbaycan multikulturalizmə, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa, İslam mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verib. Bu gün də multikultural Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətimizin diqqət və himayəsindən yararlanırlar.



"Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranı yaşandığı müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında birləşməyə çağırır, multikulturalizm və İslam həmrəyliyi ideyalarının dövlət siyasətinin prioritet istiqamətləri olmasını bəyan edir. Bütün dünyaya çağırış olaraq ölkəmizdə "Multikulturalizm" və "İslam Həmrəyliyi" illərinin elan olunması Azərbaycan Prezidentinin XXI əsrdə həyata keçirdiyi müdrik təşəbbüslərdir. Bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Qafqaz Müsəlmanları İdarəsinin yanında "Dialoqdan həmrəyliyə: dinlər və sivilizasiyalararası əməkdaşlıq" mərkəzinin təsis edilməsi bu ənənənin davamı kimi dəyərləndirilməlidir. Yeri gəlmişkən, Azərbaycan dövləti İspaniyanın həmtəşəbbüsçüsü olduğu Sivilizasiyaların Alyansı ideyasına da böyük önəm verir və bunun bariz nümunəsi BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etməyimiz oldu. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik. Biz din xadimləri dünyada baş verən hadisələrə ilahi ədalət və insani dəyərlər baxımından qiymət veririk. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının Pitsburq şəhərindəki sinaqoqda və Misirdə qibti zəvvarlara qarşı törədilmiş terror aktları din xadimləri tərəfindən ilahi dəyərlərin pozulması kimi səciyyələnir. Bu siyahıya Azərbaycan ərazisinin bir hissəsinin uzun illərdir davam edən işğalını, Xocalı şəhərində soyqırımı törədilməsini, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsini, zəbt olunmuş ərazilərimizdə məscid, kilsə, sinaqoq və qəbiristanlıqların məhv edilməsini əlavə etmək istəyirəm. Bu gün dünya belə cinayətlərə göz yumarsa, gələcəyini də itirə bilər. Halbuki Allah-Təala bizə xeyir əməllərdə, savab işlərdə bərabər olmağı, birgə fəaliyyət göstərməyi əmr edib", - deyə şeyxülislam Allahşükür Paşazadə bildirdi.



Şeyxülislam bu konfransın nəticələrinin hamı üçün - hər iki tərəf və hər iki sivilizasiya üçün olduqca mühüm və yaxşı olduğunu diqqətə çatdırdı. QMİ sədri sivilizasiyalararası dialoqa əməli töhfələr verən İspaniya dövlətinə və hökumətinə bu tədbirə verdiyi dəyərə görə təşəkkür etdi.

## İsrailin keçmiş naziri Dalia İtzik: Dünyada sülhün təmin edilməsi hər birimizin borcudur

İsrailin keçmiş naziri Dalia İtzik isə bildirdi ki, dünyada sülhün təmin edilməsi hər birimizin borcudur. Bu baxımdan, bütün insanlar əl-ələ verməli, birgə çalışmalıdırlar.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına məktubu oxundu. Məktubu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov oxudu. Məktubda deyilir ki, mədəniyyətlər və dinlər arasında dialoq dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında bu sahədə ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyətinə bərabər şəraitin yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer tutur. Azərbaycan tarixən fərqli sivilizasiyaların qovuşuğunda oynadığı mənəvi körpü rolunu bu gün də uğurla həyata keçirir. Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bununla bağlı çoxsaylı qlobal təşəbbüslər irəli sürür, müntəzəm olaraq Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlar təşkil edir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və Dünya Dinləri Liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi beynəlxalq birliyin Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdiyini göstərir. Dövlətimizin başçısı əmin olduğunu bildirir ki, ənənəvi xarakter almış Madrid beynəlxalq konfransında aparılan müzakirələr və irəli sürülən səmərəli təkliflər dünyada dinlərarası dialoqun təşviqinə, sülhə və qarşılıqlı anlaşmaya dəyərli töhfələr verəcək.

Sonra İspaniyanın Kralı VI Felipenin konfrans iştirakçılarına məktubu oxundu, konfransın yekun Bəyannaməsi qəbul edildi.

## İslam Həmrəyliyi ideyası bütün dinlər arasında dialoqun təşviqinə xidmət edir

Şübhəsiz ki, dinlərarası dialoq sülh və qarşılıqlı anlaşmanı təmin edən mühüm vasitədir. Qeyd etdiyimiz kimi, Azərbaycan bu istiqamətdə çox mühüm təşəbbüslər irəli sürür. Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması ölkəmizin dinlərarası dialoqun təşviq və təmin olunmasına xidmət edən belə təşəbbüslərindən biridir. Bu həm ölkəmizin daxili auditoriyasına, həm də dünya ictimaiyyətinə ciddi bir çağırışdır. İslam Həmrəyliyi təkcə müsəlman ölkələri üçün deyil, həm də beynəlxalq münasibətlər sistemində gərginliyin azaldılması üçün vacibdir. Çünki İslam Həmrəyliyi ideyası özündə sülh, sabitlik və tərəqqi kimi mütərəqqi dəyərləri ehtiva edir. İslam həmrəyliyi təşəbbüsü fərqli dini icmalar tərəfindən rəğbətlə qarşılanmaqla sivilizasiyaların dialoqunu təmin edən vasitə kimi qəbul edilir. İslam həmrəyliyi təşəbbüsünün əsasında heç bir dini və məzhəb ayrı-seçkiliyinə yol verilməməsi, fərqli dini icmaların sülh, sabitlik, tərəqqi və həmrəyliyə xidmət edən mövqedən çıxış etmələrinin zəruriliyi kimi müsbət dəyərlər dayanır.

Mühüm məqamlardan biri budur ki, Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi təsadüfi xarakter daşımayıb. Çünki bu gün ölkəmizdə İslam həmrəyliyi tam bərqərar olub. Prezident İlham Əliyev cari il oktyabrın 25-26-da Bakıda "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunda bu məqamlara toxunaraq deyib: "2017-ci ili isə biz "İslam Həmrəyliyi İli" elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıq, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik".

Bunlarla yanaşı, Azərbaycanda dini etiqad və vicdan azadlığı Konstitusiya normasıdır, ölkədə çoxlu sayda dini təşkilat fəaliyyət göstərir. Azərbaycan hazırda beynəlxalq arenada həm dini azadlığın yüksək səviyyədə təmin edildiyi, həm də tolerant ölkə kimi tanınır. Sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanda bütün azadlıqlar, o cümlədən vicdan azadlığı təmin edilib. Dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi, İslam dəyərlərinin müdafiəsi üçün beynəlxalq səviyyədə fəal iş aparılır. İslamofobiya meyillərinə qarşı qətiyyətli mövqeyi və mübarizəsi ilə seçilən Azərbaycan İslam həmrəyliyinin təbliğ və təşviq olunmasında mühüm rol oynayır.

Bütövlükdə, ölkəmiz dini zəmində sabitliyin hökm sürməsi, fərqli dini dünyagörüşünə sahib olan qrupların əmin-amanlıq və sülh şəraitində yaşaması ilə fərqlənir. Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri əsrlər boyu sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayıblar və bu gün də bu reallıq müşahidə edilir. İslam Həmrəyliyi ideyası da bu reallıqlara söykənir, bütün dinlər arasında dialoqun təşviqinə xidmət edir.

***Hikmət BABAOĞLU***
***Bakı-Madrid-Kordoba-Bakı***

# Arif Əliyev açıqlamaları ilə özünü ifşa edir

## “Arif Əliyev Azərbaycan jurnalistikasının Qərbin anti-Azərbaycan dairələrinə bağlı olan nümayəndələrindən hesab olunur”

***Bəzən mətbuatda özlərini təsdiq edə bilməyən və bu səbəbdən də ictimai proseslərdən kənarda qalan cızma qaraçılar fəaliyyətlərini reket dəsti-xəttinə uyğun yazı üslubuna yönəldirlər. Mətbuatın ünvanına təhqiramiz, şər və böhtan xarakterli fikirlər səsləndirənlər də olur. Onlardan biri də, “Media klubu” adlı qondarma qurumun üzvlərindən biri olan Arif Əliyevdir. Söhbət etdiyimiz müsahiblərimiz A.Əliyevin iştirakçı olduğu tədbirlərdə mətbuatın ünvanına qeyri-etik ifadələr səsləndirməsinin arxasında müəyyən sifarişçilərin dayandığını bildirdilər.***

### “Palitra” qəzetinin baş redaktoru Namiq Əliyev: “Arif Əliyev Qərbdəki dostlarından külli miqdarda vəsait almışdı”

- Özünü ölkə mediasının aparıcı simalarından biri kimi təqdim edən Arif Əliyevin mətbuat orqanlarının fəaliyyət prinsipləri haqda son çıxışını oxuyandan sonra məndə suallar yarandı. Doğrudanmı, A.Əliyev Azərbaycan milli mətbuatının inkişafını istəyir və bunun üçün də təhlillər aparıb, bu sahədəki çatışmazlıqların aradan qaldırılması üçün təkliflər verməyə çalışır? Məsələ burasındadır ki, A.Əliyev Azərbaycan jurnalistikasının Qərbin anti-Azərbaycan dairələrinə bağlı olan, daim onların maliyyəsi ilə fəaliyyət göstərən kəsiminə aid nümayəndələrindən hesab olunur. Ona görə də, onun milli mətbuatın səviyyəsinin daha da yüksəldilməsinə cəhd göstərmək təşəbbüsünü səmimi qəbul etmək olmur. 2005-ci ildə o, “Gün səhər” adlı qəzet təsis etmişdi. Bunun üçün A.Əliyev Qərbdəki dostlarından külli miqdarda vəsait almışdı. Əgər səhv etmirəmsə, ona qəzet üçün ayrılan ilk tranşın məbləği 300 min dollar civarında idi (bu rəqəm o dövrdə mətbuat səhifələrində yazıldığından, biz də xəbər tutmuşduq). Cəmi 3 il sonra belə bir xəbər yayıldı ki, maliyyə problemləri səbəbindən qəzet fəaliyyətini dayandırıb. İndi sual edirik, bu şəxs mətbuat sahəsində kadr çatışmazlığından danışır, bəs külli miqdarda vəsait əlində olanda niyə özü zamanın tələblərinə uyğun jurnalistlər yetişdirmədi? Əgər sanballı jurnalistlər yetişdirə bilibsə, bəs onlar haradadırlar? Niyə ölkəmizin daxilində, yaxud xarici ölkələrdə belə jurnalistlərin Azərbaycanın dövlət maraqlarını müdafiə edən, Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdıran, milli mədəniyyətimizi, tariximizi təbliğ edən yazılarına rast gəlmirik. Əksinə, xaricdə məskunlaşan və özünü “hüquq müdafiəçisi” adlandıran bəzilərinin fəaliyyəti və qələminin yalnız Azərbaycanın əleyhinə yönəldiyini müşahidə edirik. Axı zaman baxımından 3 il böyük müddətdir, insanlar bu dövr ərzində az qala ali məktəbi bitirirlər. Deməli, A.Əliyev mətbuatda kadr bazasının zəif olması haqda düşüncələrində səmimi deyil. A.Əliyevin zəif kimi təqdim etdiyi mətbuat orqanları və orada çalışanlar ondan fərqli olaraq, həm dünən, həm də bu gün bütün fəaliyyətlərin Azərbaycan dövlətinin milli maraqlarını müdafiə etmək istiqamətinə yönəldiblər. Bəli, onlar dövlətdən vəsait alıblar və hazırda da bu yardımların hesabına ayaq üstə dura bilirlər. Lakin bu yardımları bəzilərindən fərqli olaraq xaricilərdən deyil, öz dövlətlərindən alırlar. Nəticədə də, Azərbaycan dövlətinə xidmət edirlər və bu dövlətin, o cümlədən də, onun mətbuatının gələcəkdə daha səviyyəli olacağına inanırlar.



### “Ekspress” qəzetinin baş redaktoru Qəzənfər Bayramov: “Arif Əliyevin arxasında hansısa qüvvələrin dayandığını təxmin etmək olar”



- Arif Əliyev adlı şəxsin, Azərbaycan mətbuatına qarşı qarayaxma həyata keçirib, şər və böhtan səsləndirməsi və bu cür qeyri-etik şər böhtanlarının arxasında kimlərinsə sifarişini yerinə yetirdiyini düşünmək olar. Yəni öz başına hərəkət etmirlər, kiminsə sifarişini yerinə yetirirlər. A.Əliyev və onun kimilərdə qısqanclıq, oyundan kənarda qalma hissi var və bu da onları vəziyyətdən çıxmağa sövq edir. Ancaq hər halda hardansa maliyyələşmə ola bilər. Yəni onlar layihələr həyata keçirilər, xaricdən də qrantlarda alırlar. A.Əliyevin arxasında hansısa qüvvələrin dayandığını təxmin etmək olar. İnsanın iddia etdiyi və yaxuda hansı imkanları bu gerçəklik payı deyil ki, onu əldə edəsən. Zəhmətinlə, əməyinlə arzu etdiklərini reallaşdırmaq və cəmiyyətdə rəğbət qazanmaq olar. Hər kəs müxtəlif iddialarda ola bilər. Ancaq bu, iddiadır da, yəni iddiadan başqa bir şey deyil. A.Əliyevin də iddiaları lüzumsuz və alçatmaz iddialardır. Heç cəmiyyətin onun iddialarından xəbəri də yoxdur.

**GÜLYANƏ**

# “Vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi”

## YAP Pirallahı rayon təşkilatı bu mövzuda tədbir keçirib

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Pirallahı rayon şöbəsinin birgə təşkilatçılığı ilə “Vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi” mövzusunda tədbir keçirilib. Pirallahı qəsəbəsində yerləşən 168 saylı orta məktəbdə şagirdlərlə keçirilən görüşdə Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev, Qarabağ müharibəsi veteranları, şəhid ailələrinin və Pirallahı rayon Ağsaqqallar şurasının üzvləri iştirak ediblər.***





Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri, Qarabağ və Əfqanıstan müharibəsi veteranı Hikmət Şikarov qeyd edib ki, olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunları zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Hikmət Şikarov həmçinin bildirib ki, vətənpərvərlik məsələsi cəmiyyətdə daim aktual olub, bu gün də aktual olaraq qalmaqdadır: “Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməli desək, bəlkə də, səhv etmərik. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür.”

“Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi ölkəmizdə hərtərəfli düşünülmüş və əsaslandırılmış ordu quruculuğu siyasəti nəticəsində bu gün Azərbaycan Ordusu regionumuzda ən qüdrətli hərbi gücə çevrilmişdir və mənfur düşmən tərəfindən işğal edilmiş torpaqlarımızı ən qısa müddətdə azad etmək iqtidarındadır”, deyə vurğulayan YAP Pirallahı rayon təşkilatının sədri çıxışının sonunda bildirib ki, qısamüddətli və qalibiyyətli aprel döyüşləri xalqımızın vətənpərvərlik ruhunu bir daha nümayiş etdirməklə yanaşı Ordumuzun yüksək döyüş bacarığı və qüdrətini də əyani şəkildə sübut etdi.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev, Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov, Qarabağ müharibəsi əlili Mübariz Xudaverdiyev və Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Pirallahı rayon şöbəsinin sədri Aslan Əmrahov və digərləri çıxış edərək bildirdilər ki, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri də vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasıdır. “Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir”, deyə qeyd olunan fikirlərdə o da bildirilib ki, torpaqlarımızın 20%-nin erməni separatçıları tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkilində vətənpərvərlik mövzusunda keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir.

Rəsmi hissənin sonunda bir qrup Qarabağ müharibəsi veteranı “Milli Ordu - 100” və “Müharibə veteranı” medalları ilə təltif olunublar.

Rəsmi hissə başa çatdıqdan sonra rayonun ümumtəhsil müəssisələrinin şagirdlərinin ifasında vətənpərvərlik ruhunda səslənən şeir, mahnı və kompozisiyalar tədbirə xüsusi rəng qatıb.

**Rövşən RƏSULOV**

# Ermənipərəst Eleni Teoxarus "qara siyahı"ya salındı

***Beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də, ərazi bütövlüyü prinsipinə münasibətdə barışmaz mövqeyi, ekstremist çağırışları ilə seçilən Eleni Teoxarusun Azərbaycan və Ukraynadan sonra Albaniyanın da Avropa və Xarici İşlər Nazirliyi, eləcə də Daxili İşlər Nazirliyinin birgə qərarı ilə arzuolunmaz şəxsi elan olunması təəccüb doğura bilməz. Çünki Azərbaycanın işğal olunmuş ərazilərinə də qanunsuz səfərlər etdiyinə görə, XİN-in "qara siyahısı"na salınan, Avropa Parlamentinin Kipr Respublikasından olan üzvü Teoxarus indi də Albaniya Respublikasının Konstitusiyasına, təhlükəsizliyinə, ölkədə asayişə təhlükə yaradan ekstremist və nifrət dolu çıxışları ilə gündəmi zəbt edən qalmaqala imza atıb.***



Ekstremist çıxışları ilə suveren bir dövlətin təhlükəsizliyinə, asayişinə təhlükə törədən bir şəxs barədə Albaniyanın qərarı heç də təəccüblü deyil və gözləniləndir. Erməni diasporunun sifarişi əsasında Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərlər edən E.Teoxarusun ekstremist çağırışları indi də Albaniyaya qarşıdır və hələ daha hansı ölkələrə qarşı belə çağırışlar etməyəcəyini də kimsə deyə bilməz.

### Avropa Parlamentinin Kipr Respublikasından olan bu üzvü erməni mafiyasının sifarişi ilə işləyir

Ermənipərəst deputatın elə erməni xislətində olduğu da göz qabağındadır və Almaniyada erməni mafiyası ilə əlaqədar üzə çıxarılan faktlar təsdiq edir ki, Avropa Parlamentinin Kipr Respublikasından olan bu üzvü sifarişlə işləyir. Daha doğrusu, ermənipərəstliyi də, ekstremizm meyilləri də sübut edir ki, sifarişlə işləmək bu insan xislətidir. Belə olan halda, bu deputatın bundan sonra sifarişlə işləməyə davam etməyəcəyinə, digər dövlətlərə qarşı ekstremist çağırışlar etməyəcəyinə kimsə zəmanət verə bilməz.

Maraqlıdır, Teoxarus təkcə Azərbaycanla kifayətlənmədi və novbəti hədəf Ukrayna, sonra da Albaniya seçildisə də, barəsində heç bir ölçü götürülmədi. Bir çox faktlar, ələlxüsus erməni mafiyası tərəfində maliyyələşdirilmə faktları üzə çıxarıldısa da, yenə də bu deputat barəsində hər hansı tədbir görülməsinin şahidi deyilik. İstər Avropa ölkələrində, istərsə də Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasında Azərbaycana qarşı fəaliyyət aparan, işğal olunmuş ərazilərimizə qanunsuz səfərlər edən qərəzli şəxslərin erməni mütəşəkkil cinayət qruplaşmaları ilə əlaqələri niyə araşdırılmır? Elena Teoxarusun təmsil olunduğu Avropa Parlamenti hələ də müşahidəçi mövqedə dayanmaq niyyətindədirmi?

### Ekstremist çağırışlarla gündəmdə olan deputata reaksiya verməyən, tədbir görməyən qurumun, təşkilatın nüfuzundan danışmağa dəyməz

Beynəlxalq qurumlar bəzən hər hansı bir dövlət daxilində hansısa dələduzun, ələlxüsus konkret cinayət tərkibli ittihamlarla həbs olunmuş, lakin siyasi məhbus donu geyindirilmiş vətəndaşın guya ki, hüquqlarının müdafiəsinə qalxmaqla beynəlxalq hüquq normalarını müdafiə etdirdiklərini nümayiş etdirməyə çalışırlar. Bəs işğal olunmuş ərazilərə işğalçıların sifarişi, dəvəti ilə səfər edən deputatın qanunun tələblərini pozduğu ən azından təmsil etdiyi qurumu narahat etmirmi? Yaxud beynəlxalq hüquq normalarını artıq bir neçə dəfə pozan, bu dəfə də Albaniyaya qarşı ekstremist çağırışlar edən deputatın qanunsuz hərəkətlərinə reaksiya vermək istəmirmi?

Əvvəla, beynəlxalq qurumlar bütün dövlətlərin dövlət maraqlarına hörmətlə yanaşmalı, mövqelərini müdafiə etməlidirlər. Əks halda, həmin dövlətlər müzakirələr apardığı zaman nəyə görə beynəlxalq qurumlar buna müdaxilə edirlər? Vasitəçilik missiyası kimi vəzifəni üzərinə götürən təşkilatlar, ali prinsipləri rəhbər tutduqlarını iddia edənlərin buna münasibət göstərmək borcunu kimsə inkar edə bilməz.

Tutaq ki, Azərbaycan, Ukrayna, yaxud Albaniyanın mənafeyi belə beynəlxalq təşkilatları, qurumları maraqlandırmır. Bəs qanun? Bəs lazım olduqda pafosla səsləndirdikləri beynəlxalq hüquq normaları? Məgər pozulan hüquqlar, beynəlxalq normaların hesaba alınmaması heç bir təşkilatı narahat etmir? E.Teoxarusun təmsil etdiyi Avropa Parlamenti öz üzvünün belə qanunsuz hərəkətlərinə münasibət bildirmədiyi, cəza tədbirləri görmədiyi təqdirdə həmin qanunsuz əməllərə göz yumur. Bir sözlə, qanunsuz əməllərə göz yummaqla da qanunsuzluğa rəvac verir.

Maraqlıdır, Teoxarus kimi üzvü olan təşkilat, ələlxüsus onun qanunsuz əməllərinə cavab verməyən qurum ən azından öz nüfuzu barədə düşünmürmü? Axı dünya ictimaiyyəti bütün prosesləri izləyir və öz hədsizliyi ilə seçilən, daim ekstremist çağırışlarla gündəmdə olan deputata qarşı təmsil etdiyi qurum belə reaksiya verməzsə, bu qurumun, bu təşkilatın nüfuzundan danışmağa dəyməz. Qanun, beynəlxalq hüquq bütün hallarda özünü doğrultmalıdır və əgər bu hüquqlar hər hansı bir deputat, hər hansı bir təşkilatın üzvü tərəfindən dəfələrlə pozulursa və beynəlxalq hüquq normalarına məhəl qoymayan, hörmətsizlik edən qanun pozucusuna qarşı tədbirlər görülmürsə, ən azından, həmin deputatın qanunun olunduğu təşkilat, ilk növbədə, öz nüfuzunu zərbə altında qoyur.

*İnam HACIYEV*

# Eleni Teoxarusun ifşası erməni lobbisinə böyük zərbədir

## *Getdikcə dünya ədalətin bərpası istiqamətində qətiyyətli addımlar atır*

Avropa Parlamentinin üzvü Eleni Teoxarus Albaniya Respublikasında da arzuolunmaz şəxs elan olunub. Eleni Teoxarus, bir çoxlarına Azərbaycanın işğal edilmiş ərazilərinə etdiyi qanunsuz səfərləri və bunun nəticəsində ölkəyə "girişi arzu olunmayan şəxslər" siyahısına daxil edilməsi və haqqında AR Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılması ilə tanınır. AP-nin Kipr Respublikasından olan üzvü növbəti qalmaqal ilə gündəmə gəlib. Erməni diasporunun sifarişi əsasında ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə səfərlər edən, E.Teoxarus indi də Albaniya Respublikasının Konstitusiyasına, təhlükəsizliyinə və ölkədə asayişə təhlükə yaradan ekstremist və nifrət çıxışı səbəbindən Albaniyanın Avropa və Xarici İşlər Nazirliyi və Daxili İşlər Nazirliyinin birgə qərarı ilə ölkəyə girişi arzuolunmaz şəxs elan olunmuşdur. Söhbət etdiyimiz müsahiblərimiz Eleni Teoxarus kimilərin lobbiçi qruplarının verdiyi maliyyə vəsaitinə uyğun olaraq, hərəkət etdiklərini bildirdilər.

### Millət vəkili Eldəniz Səlimov: "Albaniyanın Eleni Teoxarusu arzuolunmaz şəxs elan etməsi düzgün və əsaslı addımdır"



- Avropa Parlamentinin üzvü Eleni Teoxarus Avropa Parlamentinin qanunlarına uyğun hərəkət etsəydi, onu normal qəbul edərdilər. Ancaq o, yanlış yol tutdu. Avropa Parlamentinin qərarı ilə əməli düz gəlmədiyi üçün problemlər yaşayır. Ermənipərəst Eleni Teoxarus ermələri yersiz təbliğ edir, onların maraqları üçün çalışır. Albaniyanın Eleni Teoxarusu arzu olunmaz şəxs elan etməsi düzgün və əsaslı addımdır. Albaniyanın bu addımı, həm də erməni diasporunun iflasını göstərir. Hadisələrin gedişi göstərir ki, getdikcə dünya ədalətin bərpası istiqamətində qətiyyətli addımlar atır. Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün dünya ölkələri Azərbaycanın haqq səsinə səs verir.

### Politoloq Qabil Hüseynli: "Eleni Teoxarus gəmidə oturub, gəmiçi ilə dava edən adam kimidir"



- Avropa Parlamentinin üzvü Eleni Teoxarus gəmidə oturub, gəmiçi ilə dava edən adam kimidir. Bu kimi şəxslər ölkələrinin nüfuzuna çox böyük zərbə vururlar. Kiprdən olan Avropa Parlamentinin üzvü Eleni Teoxarus müəyyən lobbiçi qruplarının maraqlarına uyğun, onların buna verdiyi maliyyə vəsaitinə əsasən fəaliyyətini qurur, anormal çağırışlar və bəyanatlar verir. Bəzən müxtəlif münaqişə bölgələrinə səfərlər edir və müəyyən sifarişlərə uyğun açıqlamalar verməklə dövlətlərarası münasibətlərdə etimadsızlıq mühiti yaratmağa çalışırlar. Ona görə də, bu cür adamların arzuolunmaz şəxs hesab edilməsi çox yerində olan bir qərardır. Hesab edirəm ki, digər dövlətlər də analoji addımı atmalıdırlar. Yalnız bu yolla separatizmi dəstəkləyənləri əməllərindən çəkindirmək olar.

### Politoloq Elxan Şahinoğlu: "Tanınmış adamlar işğal altında olan Qarabağa gəlmirlər"



- Bəzən müəyyən qüvvələrdən, xüsusilə də, erməni lobbisindən maliyyə dəstəyi alan şəxslər Ermənistan tərəfindən işğal edilən və Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa qanunsuz səfərlər edirlər. Onu iki qüvvə təşkil edir. Birincisi, ikili siyasət aparan Qərbdəki qüvvələrdir, ikincisi isə, onlara maliyyə dəstəyi verən erməni lobbisidir. Yeni Qarabağa qeyri-qanuni səfərlər olur. Amma siz fikir verin, tanınmış adamlar işğal altında olan Qarabağa gəlmirlər. Çünki bunun necə problem olduğunu anlayırlar. Yeni Azərbaycanla münasibətlərini korlamaq və arzuolunmaz siyahıya düşmək istəmirlər. Amma yenə də adamlar tapılır ki, Qarabağa qanunsuz səfərlər edirlər və bunlar ifşa olunurlar. Bunu edənlər yenə də ikili standartlar yürüdən Avropadakı qüvvələrdir ki, vaxtilə erməni separatizminə dəstək veriblər və bu gün də öz əməllərini davam etdirirlər. Onlar əsasən, avropalı deputatlardır ki, erməni lobbisi tərəfindən maliyyələşirlər. Zəif və gücsüz Ermənistan bu qüvvə ilə Azərbaycanla mübarizə aparmaq məcburiyyətində qalıb.

**GÜLYANƏ**

# "Teoxarus artıq muzdla işləyir"

"Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasına görə, hazırda 792 xarici ölkə vətəndaşı arzuolunmaz şəxs elan olunaraq onların ölkəmizə girişi qadağan edilib. Bu siyahıya baxdıqda ölkəmizə olan münasibətin ümumi mənzərəsi aydın olur. Bu siyahıda lider ölkə Rusiyadır. Təxmini hesablamalarıma görə, arzuolunmaz şəxs elan olunan xaric ölkə vətəndaşları siyahısında Rusiya birinci yerdədir və təxminən siyahının yarısını təşkil edir. Bundan başqa Fransa, Kipr, İtaliya, Almaniya və ABŞ vətəndaşları da qara siyahıya daxil edilib". Bunu SİA-ya açıqlamasında politoloq Vasif Əfəndiyev deyib. Onun sözlərinə görə, arzuolunmaz şəxslər arasında bir neçə islam ölkələrinin vətəndaşları da var: "Bu siyahıya İran liderlik etsə də, nisbətə baxanda o qədər çox deyil. Ümumilikdə Avropa dövlətlərinin böyük çoxluğu bu siyahıya düşməyib. Norveç krallığının isə bir nəfər də olsun nümayəndəsi arzuolunmaz şəxs elan edilməyib. Eleni Teoxarusun Albaniyada arzuolunmaz şəxs elan olunması heç də təəccüblü deyil. Bundan öncə Teoxarus Azər-



baycan və Ukraynada da eyni aqibətlə üzləşib. Bu qadın artıq muzdla işləyən deputata çevrilib. Əsas fəaliyyəti isə separatizmi dəstəkləməkdir. Mahiyyətcə şovinist yunan millətçisidir və Kipr probleminin həllində yalnız milliyətçilik nöqteyi-nəzərindən yanaşır və yerli türklərin haqqını tanımaq istəmir. Bu deputat xanımın erməni mafiyası ilə də əlaqəli olduğu da məlumdur. Onun separatçı rejimlərə dəstək səfərlərinin arxasında Yunanıstan əsilli erməni milyarder Kaspar Karampetyan dayanır".

# Milli-mənəvi dəyərlər və azərbaycançılıq ideologiyası milli ruhun, milli şüurun formalaşması kontekstində

***İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər tarix, dil, din, adət-ənənələr, mentalitet, mədəniyyət, ədəbiyyat və incəsənətdir. Ümumiyyətlə, "mənəvi dəyərlər" insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlayıb. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır.***



***"Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.***

Təsadüfi deyildir ki, dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatıb. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri, İslam dininin təmizlik, düzlük, insanlıq, kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir.

Bu da təkzibedilməz faktdır ki, milli-mənəvi dəyərlər və azərbaycançılıq hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir.

Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlayıb, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarıb. Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirmişdir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın çağrışı ilə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət verib.

Ümummilli Lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlamasıdır. Ümummilli Liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Ulu Öndər Heydər Əliyev üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə. Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" - deyən Ulu Öndər Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli Lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirtdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- deyən Ulu Öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi rəhbərliyə gələn Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə başladı. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Ümummilli Lider Heydər Əliyev hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı. Ulu Öndər Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. Qırğızların "Manas" eposunun 1000 illik yubileyində iştirak və çıxış edən Heydər Əliyev bütün türk dünyası üçün əvəzedilməz müdrik bir şəxsiyyət olduğunu bir daha sübut etdi. Ulu öndər Heydər Əliyev islamiyyətlə bağlı olan dini-mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu Öndərin dini-əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi.

Qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Ulu Öndər Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Ulu Öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"- bəyanatı probleme təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilib.

Bu gün Prezident İlham Əliyevi, eyni zamanda, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu gün Ulu Öndərin ali ideyalarının gerçəkləşməsində Prezident İlham Əliyevlə birgə onun xanımı, ölkənin birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Yüksək mənəvi-əxlaqi dəyərləri parlaq şəxsiyyətində cəmləyən Azərbaycan qadını kimi Mehriban xanım Əliyeva demokratik, hüquqi dövlət quruculuğu yolunda sürətlə irəliləyərək sivil dəyərləri əxz edən Azərbaycan cəmiyyətinin həyatına birinci Xanım ənənəsini də gətirib. Əslində, nə vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi, tarixin hansısa mərhələsində unutduğumuz bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı da, məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

***Tünzalə İsmayılova,***
*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun "Media və mənəvi dəyərlər" mövzusunda elan etdiyi məqalə müsabiqəsinə təqdim edilir.*

# İsa Qəmbər geri dönür?

## Və ya Müsavatın növbəti qurultayı öncəkindən daha qalmaqallı keçəcək

***Müsavat partiyasının hələ 2014-cü ildə keçirilən qalmaqallı qurultayında baş verənlər məlum hadisələr və qurultaydan sonra yaranan istefalar dalğası bu gün də siyasətlə maraqlanan tərəflərin müzakirə obyektində qalmaqdadır. Parçalanmış və hazırda da didişmələrlə yadda qalan Müsavat partiyası isə get-gedə siyasi iflasına doğru daha sürətlə irəliləməkdədir. Belə ki, partiyanın saxta yollarla seçilmiş başqanı Arif Hacılı zaman-zaman mətbuata müəmmalı açıqlamalarını, müsahibələrini verərkən, üstüörtülü fikirləri ilə nə qədər çətin durumda olduğunu nümayiş etdirib.***

### Arif Hacılı özünə inanmır, yaxud İsa Qəmbərin "əfsanənin qayıdışı" planı

Məsələ ondadır ki, növbəti ilin may ayında keçiriləcək qurultayına hazırlıqla bağlı açıqlama verən A.Hacılı deyib ki, qurultayın gününün təyin edilməsi hazırlıq işlərinin gedişindən asılıdır və s. Məhz bu açıqlamadan da bəlli olur ki, əslində, partiyadaxili münasibətlər çox pis vəziyyətdədir və qurultay gününün təyin edilməsi belə, ciddi problemə çevrilib. Halbuki, A.Hacılı bu və ya digər şəkildə rəhbəri olduğu partiyasının qurultay gününü bir iclas keçirməklə müəyyənləşdirə bilər. Sadəcə, partiyadaxili münasibətlərdə funksionerlərin fikirlərinin üst-üstə düşməməsi həmin problemi daha da qabartmış olur.

İlginc görünən daha bir məqam A.Hacılının "partiyanın növbəti qurultayında namizədliyinizi irəli sürəcəksinizmi?" sualından yayınmasıdır. Belə ki, "namizədliyin irəli sürülməsi mərhələsi irəlidədir", deyən Müsavat başqanı bu dəfə özünə inamının olmadığını dolayısı ilə etiraf edib. Hətta Hacılı başqanlığa namizədliyini irəli sürəcəyini desəydi, ya da başqa bir namizədin adını açıqlasaydı belə, yenə də bu inamsızlığını biruzə verəcəkdi. Artıq Müsavata yaxın kuluarlarda belə bir fikir də formalaşmağa başlayıb ki, sabiq başqan İ.Qəmbər A.Hacılını bu postdan çıxdaş etməyə hazırlaşır. Çünki 2014-cü ildəki qurultayda Qubad İbadoğlunu, Vurğun Əyyubu, Səxavət Əlisoyu, Ellada Məmmədlini, Hikmət Hacızadəni və başqa köhnə müsavatçı funksionerləri, başqan müavinlərini, müşavirləri A.Hacılıya qurban verməklə nə qədər səhv mövqe tutduğunu anlamağa başlayıb. Hacılı isə söz yox ki, İ.Qəmbərin ümidlərini doğrulda bilməyib. Eləcə də, İ.Qəmbərin hazırda "əfsanənin qayıdışı" tipli plan üzərində "baş sındırdığı" barədə məlumatlar əldə edilməkdədir.



### Ellada Məmmədli: "Qurultaydan sonra belə bir nəticəni gözləməyən keçmiş başqan uzun illər onun tərəfdarı olmuşlara "xəyanətkar, iqtidara işləyənlər" damğasını vurdu"

Bu gün Q.İbadoğlunun sədri olduğu və demək olar ki, tərkibi köhnə müsavatçılardan ibarət olan "ADR" hərəkatının funksioneri, Müsavatın qadınlar şurasının sabiq sədri Ellada Məmmədli də hesab edir ki, İ.Qəmbər A.Hacılını başqanlığa saxta yollarla təyin edərkən, əslində, öz "siyasi nüfuzunu" qorumağa çalışıb, hətta keçirilməsi gözlənilən qurultayda özünü başqanlıq kreslosuna kökləyib.

"İsa Qəmbər başqanlıqdan gedəndə Müsavatın parçalanacağını hesablamamışdı. O düşünürdü ki, Müsavat partiyasındakı insanlar hamısı onun tərəfdarlarıdır və dediyi sözlər, birmənalı olaraq, hər kəs tərəfindən qəbul ediləcəkdir", deyən E.Məmmədlinin sözlərinə görə, Müsavatdan məhz İ.Qəmbərin yaxın çevrəsi, ona sadiq olanlar getdilər və yaxud da onu dinləməyənlər partiyadan xaric olundular: "Partiyadan gedənlər elə İ.Qəmbərin tərəfdarları oldu. Qurultaydan sonra belə bir nəticəni gözləməyən keçmiş başqan uzun illər onun tərəfdarı olmuşlara "xəyanatkar, iqtidara işləyənlər" damğasını vurdu. Bu da illərini partiyaya həsr edən insanlara vurulan damğa, onu dinləməyənlərin "cəza damğası" idi. Ona görə də A.Hacılının Müsavatda qalması və ya getməsi artıq heç nəyi həll etmir. Dünənə kimi A.Hacılını günahkar bilənlər bu gün elə düşünmürlər. Ona bu qədər səlahiyyəti verən kimdir? Təbii ki, 22 il partiyaya başqanlıq etmiş İ.Qəmbər".

### İsa Qəmbər başqanlığa namizəd olaraq iddiasını ortaya qoymaqla, Arif Hacılı klanını özünə qarşı qaldıracaq

Ellada Məmmədli onu da qeyd edib ki, siyasətin öz qanunları var: "Bəzi hallarda liderlər müsbət və mənfi xüsusiyyətlərinin həyata keçirilməsi üçün bəzi şəxslərdən istifadə edirlər. Dünənə qədər Müsavatı xaricdə təmsil edən Qubad İbadoğlunun xidmətləri birmənalı olaraq, onun başqanının adına yazılırdı ki, baxın İ.Qəmbərin ətrafında necə ziyalılar toplaşıb. O cümlədən, professor Adil Qeybullanın, professor Almaz Əliqızının, Hikmət Hacızadənin, Vurğun Əyyubun və adını çəkmədiyim bir çox ziyalının xidmətləri Müsavat başqanının adına yazılırdı. Ona görə də əvvəllər hər kəs İ.Qəmbəri yaxşı tərəfdən tanıyırdı. Bəs mənfi işləri görənlər kimlərdir? Qaragüruh dəstəsi! Onları kim idarə edir-Arif Hacılı və onun Müsavatda rəhbər postlara təyin edilmiş qruplaşması. Deməli, buradan belə qənaətə gəlmək olar ki, A.Hacılı İ.Qəmbərin görünməyən qara simasıdır".

Beləliklə, görünən budur ki, Müsavat partiyasının keçiriləcəyi növbəti qurultayı daha qalmaqallı və daha sərt qarşıdurmalarla nəticəsini tapa bilər. İ.Qəmbər başqanlığa namizəd olaraq iddiasını ortaya qoymaqla, A.Hacılı klanını özünə qarşı qaldıracaq və beləliklə, Müsavat adında partiya tamamilə siyasi səhnədən silinəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Qənimət Zahidov nə üçün küyə düşdü?

## Əli Kərimli sıravi partiyadaşlarına əmək haqqı verə bilmirsə...

***Gözəl bir deyim var: "ağacı qurd içindən yeyər". Bu gün dağıdıcı müxalifət düşərgəsində təmsil olunanlar kimi. Azərbaycanın güclənməsini və müstəqil siyasət yeritməsini gözü götürməyən erməniyə nökərçilik edən, xaricdə oturub anti-Azərbaycan qüvvələrin təsiri altında satan və satılan dağıdıcı müxalifət çirkin əməllərinə sadiq qalaraq yenə də ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaqdan əl çəkmirlər. Çünki bu parazit və vətən xainlərinin xəmiri satqınlıqdan yoğrulub. Ancaq bütün cəhdlərə baxmayaraq anti-Azərbaycan dairələrin və erməni lobbisinin çirkli pulları, antimilli ünsürlərin "lideri" Əli Kərimlinin dirijorluğu ilə "fəallaşan" Qənimət Zahidov, "Meydan TV"nin icraçı direktoru Emin Milli, onların ətrafındakı fərari tör-töküntüləri yenə də nə qədər iyrənc və alçaq olduqlarını nümayiş etdirməkdədirlər.***

Bu günlərdə AXCP sədri Ə.Kərimlini Q.Zahidova göndərdiyi "naməsinə" əsasən, hamını iki cüt, bir tək qalan AXCP-yə üzv olsunlar, eyni zamanda, şəhid ailələrinə də "canıyananlıq" edərək şəhid ailələrini Azərbaycan dövlətinə qarşı mitinq keçirməyə çağırış edib. Bu yerdə, doğrudan da, həyasızlığın 100 faizi buna deyərlər. Əgər Ə.Kərimli partiyasının iki cüt, bir tək işçisinə pul verə bilmirsə, satqınçılıq və xarici qüvvələrə nökərçilik etməklə aldığı pulları öz ailəsinə xərclədiyi halda hansı qayğıdan danışa bilər?

Ölkədəki demokratik şəraitdən, söz, mətbuat azadlığından sui-istifadə edən "Azadlıq"çıların, Q.Zahidov kimilərin qələmindən ancaq zəhər-zəmbərək iftiralar, şər-böhtan, əsassız ittihamlar tökülür. Milli maraqlardan, erməni işğalından, bir milyona yaxın qaçqın və məcburi köçkünün problemlərindən yazmaq, danışmaq isə heç onların yadına da düşmür.

Və yaxud da, bir vaxtlar sədası "Üç Palma"dan gələn Qənimət bu gün Fransada kiminsə ağuşuna sığınıb, yenidən Azərbaycana əl uzatmaq sevdasına düşüb. Onun gizləndiyi ölkə də kifayət qədər maraqlıdır. Fransa o dövlətdir ki, hər zaman milli məsələlərdə Azərbaycanın əleyhinə çıxışlarla işğalçı Ermənistana dəstək verib. Məntiqdən belə çıxır ki, Q.Zahidovu saxlayanlar ya ermənilərdir, ya da... Övladlarına təhsil verir. Mülk alır, gəzir, kef edir. Bununla da qalmır, televiziya yaradır. Operator, montajor, proqramçı, müxbir saxlayır. Hansı pulla?

### Erməni lobbisinin antimilli maşası - reallıqları gör!

Kor-kar olan Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli, Q.Zahidov və bu kimi ünsürlər bu gün Azərbaycan dövlətinin bütün sahələrdə, o cümlədən ölkəmizdə olan şəhid və əlil ailələrinə göstərdiyi diqqət və qayğını görmək iqtidarına malik deyil. Görməyən gözlər görsün, kar qulaqlar eşitsin: Bu gün şəhid ailələrinin problemi dövlətin daim diqqət mərkəzindədir. Elə bu Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasıyla bağlı verdiyi Fərman dövlətin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının əyani təzahürüdür.



Qərara əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat ödəmə veriləcək. Bu, ölkə Prezidentinin andiçmə mərasimindən və səlahiyyətlərini icra etməyə başladıqdan sonra imzaladığı ilk qanunvericilik aktıdır. Ölkə başçısı bununla bir daha təsdiq edib ki, dövlətin həyata keçirdiyi ardıcıl sosial siyasət daha da gücləndiriləcək, xüsusi diqqət və qayğıya ehtiyacı olan vətəndaşların problemlərinə bundan sonra da həssaslıqla yanaşılacaq. Prezident İlham Əliyevin imzaladığı bu Fərman göstərir ki, qarşıdakı illərdə dövlətimizin sosial siyasətinin ana xəttini dövlətimizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarını fəda edərək şəhid olmuş insanların və itkin düşmüş şəxslərin ailələrinin qayğılarının yüngülləşdirilməsini təşkil edəcək.Və bu fərman, eyni zamanda, Vətənimizin müdafiəsi uğrunda qətiyyətli mübarizənin ön yerdə olacağından da xəbər verir.

### Özgənin yalı ilə bəslənənlər...

Maraqlısı odur ki, Qənimət Zahidov haqqında yayımlanan faktlara münasibət bildirərkən deyir ki, bu günə kimi heç kimdən bir manat da olsun pul almayıb. Burada belə bir sual yaranır. Onda Qənimət Zahidovu kim saxlayır?

Bəllidir ki, uzun müddət xaricdə məskunlaşan Qənimət Zahidov bir sıra erməni lobbisi tərəfindən maliyyələşdirilən xarici təşkilatlarla işbirliyi apararaq, Azərbaycan əleyhinə daha azğın düşmənçilik nümayiş etdirməkdədir.

Ancaq üzdəniraqlar unudurlar ki, tutduqları düzgün yol deyil. Müxalifətçilik belə olmur. Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan bələləri nədənsə hər şeydən əvvəl vətəndaşlıq borclarını "yaddan çıxarırlar". Bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Bələləri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

***Rəfiqə HÜSEYNOVA***

# Orduxan Teymurxanın bişərəflik titulu

## *Yaxud bir şəhid oğluna qarşı törədilən nakişilik!*

***Hollandiyada saxta "siyasi mühacir" statusu ilə erməni siyasətini dəstəkləyən, bilavasitə düşmənlə əlbir olub, Azərbaycan dövləti əleyhinə qarayaxma kampaniyaları aparan Orduxan Teymurxan bu dəfə erməni dayıları tərəfindən ona verilmiş növbəti sifarişi həyata keçirməyə cəhd etsə də, necə deyərlər, özü-özünü tələyə salıb. Daha dəqiq desək, şəhid ailələri üzərindən aşkar həyasızlıq və sözün həqiqi mənasında ləçərlik edən Orduxan guya kimlərinsə halına "yandığını" sərgiləyərkən, özü bir şəhid oğluna qarşı həqarət etdiyinin fərqinə varmayıb.***



### "Kentavr" ləqəbli bir casusa ən yaxşı halda vətənşivən adı yaraşdırıla bilər!

Məsələnin mahiyyətinə yanaşmamışdan öncə xatırlatmaq yerinə düşərdi ki, məhz həmin bu O.Teymurxan facebook səhifəsində böhtan, qərəz və şantajlara əl atarkən, divar dibində var-gəl edərkən, ümumiyyətlə, nə qədər gədalıq, hətta "kişi" fahişəsi adına layiq olduğunu sərgiləyərkən bir daha, bu kimi titullara layiq olduğunu sübuta yetirmiş oldu. Təkcə, aşağıdakı faktlara diqqət yetirək və sual edək: Azərbaycan Ordusu sıralarında xidmət keçməyən, Qarabağda qızğın döyüşlər gedərkən, öz doğma yurd-yuvasını qoyub Rusiyaya qaçan, sovet ordusunun silahlı qüvvələrində xidmətini keçdikdən sonra "Kentavr" ləqəbi ilə casusluq edən, hətta 1990-cı ilin qanlı 20 yanvarında gecə ilə Bakıya gətirilmiş cəza dəstəsinin tərkibində olan bu ünsürün "vətənpərvər" olduğuna necə inanmaq olar?! Əlbəttə ki, heç cür. Ən yaxşı halda ona vətənşivən adı yaraşdırıla bilər!

### Orduxan Teymurxan özünü bu cür tələyə salıb

İndi isə gələk mahiyyətə. Məsələ ondadır ki, O.Teymurxan özünü guya "mübariz müxalifətçi" kimi təqdim edir və Azərbaycanda baş verən ən kiçik məişət hadisəsi ətrafında "tumanının balağını başına çəkib", şivənlik salır - bu dəfə şəhid ailələri üzərində çirkin dividend qazanmaq məqsədi ilə. Daha dəqiq desək, bir şəhid anasına əsl oğul, mədəniyyətli insan və polis adına yaraşan tərzi ilə münasibət bəsləyən şəhid oğluna qarşı qərəz, həqarət, şər, böhtan və yalan yağdırıb. Guya həmin polisin şəhid anasına qarşı "qaba" rəftar göstərdiyini iddia edən O.Teymurxan, məhz bu anda özünü tələyə salıb. Bəlli olub ki, həmin polisə qarşı şər-böhtan və söyüş kampaniyası apararkən, bu polisin özünün şəhid övladı olmasının fərqinə vara bilməyib. Bu polis isə, hazırda erməni işğalı altında olan Şuşanın şəhadətə yetişmiş icra başçısı Sadiq Gözəlovun oğlu Müşfiq Gözəlovdur! Hətta "Meydan TV"-nin də kadrlarından görünür ki, polis əməkdaşı Müşfiq Gözəlov Şəhid anasına "anam, istəsəniz sizi öz maşınımla ünvana apararam" sözlərini işlədir, ümumiyyətlə, şəhid analarına-bacılarına qayğı göstərdiyi görünür. Amma nədənsə, O.Teymurxan bunu "görmür"... Bunun isə yerinə başlayır erməni sifarişi ilə hürməyə, zingildəməyə və ...

### Olan isə yenə də Orduxana oldu...

Yuxarıda isə onun barəsində sadaladığımız faktlar qalır bir kənarda. Və belə görünür ki, demə Azərbaycan xalqına və dövlətinə düşməncəsinə münasibət bəsləyən bu murdar unsurə birdən-birə şəhid ana-bacılarımızın "qayğıkeşinə" çevrilir (???!!!-R.N.)

Beləliklə, məlum olub ki, Hollandiyada erməni artığı yeyən bu ikiayaqlı məxluq normal cəmiyyətdə çaşqınlıq yaratmaq, həqiqətə uyğun olmayan informasiyaları ictimai rəyə zorla sırımaq cəhdini göstərib. Ancaq haqq nazilər, üzülməz reallığını da nəzərə alsaq, bu dəfə də, hər zaman olduğu kimi, haqqın onun yanında olmadığını tam əminliklə deyə bilərik. Olan isə yenə də Orduxana oldu. O özünün və ətrafının nə qədər ucuz, ləyaqətsiz və bişərəf ünsürlər yığnağına aid olduqlarını bütün təfsilatı ilə sübuta yetirmiş oldu. Həqiqətdə, bu cür reallıqlar, faktlar, dəlillər, sübutlar isə kifayət qədərdir. Zaman-zaman onların hər biri ictimai rəyin diqqətinə çatdırılır. Bundan sonra da çatdırılacaq.

***Rövşən***

# "Bakcell"in dəstəyilə keçirilmiş M.A.P. Festivalı unudulmaz təəssüratlar bəxş edib



***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell 6-11 noyabr tarixlərində Bakıda YARAT Müasir İncəsənət Məkanı tərəfindən keçirilən ikinci M.A.P. Beynəlxalq Teatr Festivalının baş sponsoru olub. SİA xəbər verir ki, "Bakcell artıq ikinci ildir ki M.A.P. Festivalının baş sponsorudur. Keçən il olduğu kimi, bu ilin tamaşaları da böyük uğur qazanıb və bütün yaş qruplarında olan teatr və performans həvəskarları tərəfindən böyük maraqla qarşılanıb. Fikrimcə, bu festival həm yerli, həm də beynəlxalq müstəvidə olduqda vacib bir tədbirdir.***

Yüksək səviyyədə təşkil edilmiş bu təşəbbüsə görə YARAT Müasir İncəsənət Məkanına Bakcell adından təşəkkürümüzü bildirmək istərdim. Bakcell şirkəti Azərbaycanda musiqi və incəsənətin inkişafına və ölkənin gəncləri arasında mədəniyyət və incəsənətin təbliğ edilməsinə töhfə verməyə davam edəcək", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers qeyd edib.

Ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi platforması olan M.A.P. (musiqi, incəsənət və performans) festivalı tamaşaçı auditoriyasına müasir teatr formalarının geniş diapazonu ilə tanış olmağa kömək etmək məqsədilə özündə müxtəlif teatr nümunələrini birləşdirir. Bu ilki festival çərçivəsində İtaliya, Danimarka, Estoniya, Almaniya, İran, Yaponiya, İsveçrə, Rusiya və Birləşmiş Krallıqdan olan nüfuzlu teatr qurumlarının 16 tamaşası təqdim olunub. Festival zamanı nümayiş etdirilmiş unikal tamaşalar ictimaiyyətin böyük marağına səbəb olmaqla Azərbaycanın teatr həvəskarlarına unudulmaz təəssüratlar bəxş edib. Tamaşaları müşayiət edən zəngin ustad dərsləri və mühazirələr yeni fəaliyyətə başlayan rejissorlar, aktyorlar, dramaturqlar və digər peşəkarların öz həmkarları ilə görüşməsinə və fikir mübadiləsi aparmasına imkan yaradıb.

"Biz qarşımıza incəsənət vasitəsilə sərhədləri aradan qaldıran, mədəniyyətləri birləşdirən, insanları bir araya gətirən və dünyanın müxtəlif yerlərindən müasir teatr tamaşaları ilə tanış olmağa imkan verən festival keçirmək məqsədi qoymuşduq. Bu ilki M.A.P. festivalının uğuru bir daha göstərdi ki bütün yaş təbəqələrinə aid Azərbaycan tamaşaçılarının müxtəlif teatr janrlarına böyük marağı var. Bu, ölkəmizdə incəsənət və mədəniyyətin inkişafına yönəlmiş fəaliyyətimizi davam etdirmək üçün bizə əlavə stimul verir. M.A.P. Festivalını növbəti dəfə dəstəklədiyi üçün "Bakcell"ə öz dərin təşəkkürümü bildirirəm. Artıq ikinci ildir ki M.A.P. Festivalının baş sponsoru qismində çıxış etməsi Bakcell şirkətinin Azərbaycanda incəsənət və mədəniyyətin inkişafına verdiyi töhfənin bariz nümunəsidir", deyə "YARAT" Müasir İncəsənət Mərkəzinin bədii direktoru Suad Qarayeva-Maleki bildirib.

Azərbaycanın payız təqvimində əlamətdar yer tutmuş M.A.P. festivalı teatrın Azərbaycanın mədəni həyatında öz əvvəlki nüfuzunun və əhəmiyyətinin qaytarmasına xidmət edib. Milli telekommunikasiya operatoru olan Bakcell ölkədə iri-miqyaslı və nüfuzlu mədəniyyət layihələrinə daim dəstək göstərir.

# "Milli Şura" siyasi əcinnələr yuvasına çevrilib



**Rəfiqə**

***Yarandığı dövrdən xarici siyasi dairələrin oyuncaq qurumu rolunu oynayan "Milli Şura" bu gün siyasi əcinnələr yuvasına dönüb. Əqidəsindən dönənlər, hər dərədən gələnlər, xaricdən dilənənlər, pul üstündə bir-birini söyənlər yığışıblar siyasi əcinnələr yuvası olan "Milli Şura"ya. Bu siyasi əcinnələr yuvasının başında qocalıb əldən düşmüş, çörəyi dizinin üstündə olan satqın Cəmil Həsənli dursa da, özünü "əhəmiyyətli siyasi fiqur" kimi ictimai rəyə sırımağa çalışan AXCP sədri Əli Kərimli xam xəyallarında qalmaqda davam edir.***

"Azadlıq" qəzetinin sabiq yazarı, AXCP-nin keçmiş üzvü Mirzə Sakit "Milli Şura"dakıları "yazıq adamlar" adlandırmaqla yanaşı bildirib ki, əcinnələr üçün saman çöpü olan bu ölü qurumda "ölümdirim" mübarizəsi gedir. Mirzə Sakit gör necə qeyrətə gəlib ki, C.Həsənli ilə Ə.Kərimlini açıq şəkildə tənqid edərək bildirib ki, şantajçı və böhtançı "Milli Şura"nın sədri C.Həsənli və AXCP sədri Ə.Kərimli hakimiyyəti suçlamaqdansa, özlərinə baxsınlar. Azərbaycan xalqının adından istifadə etməsinlər, "Milli Şura"larının maskaradları ilə məşğul olsunlar: "Onların hamısı o maskaradın tifil oyunçularıdır. Xalq da oyunbazlığı sevmir və xalqa yalan vədlər yedirtmək lazım deyil. Onlardan haqqımı tələb etdiyimə görə, mənə anormal fərd kimi baxırlar".

M.Sakit digər maraqlı bir məqama da toxunub: "Milli Şura"nı yaradan siyasi partiyaların heç biri hazırda orada təmsil olunmur. Yalnız AXCP-dən başqa. Bu qurum 2013-cü ilin prezident seçkilərindən sonra süqut edib. AXCP-dən ibarət olan "Milli Şura" Azərbaycanda müxalifətin olmadığını icazəli mitinqlərə çıxartdıqları insanlara sübut etdilər".

M.Sakit onu da vurğulayıb ki, Azərbaycanda AXCP adında partiya yoxdur, bu partiyanın adından spekulyasiya edən satqın, xain "Yurd", əcinnə-şeytan olan Ə.Kərimli kimi iblis var. Bir əlində iki qarpız deyil, hətta beş-altı qarpız tutmağa can atan Ə.Kərimli bu dəfə "qoca professorun kitabını birdəfəlik bağlamaq üçün indi də "üçbaşlı əjdaha" olmaq "istəyir".

Mirzə Sakitin səsinə səs verən "hüquq-müdafiəçisi"Xədicə İsmayıl deyib ki, hər yeri kor günə qoyan Ə.Kərimlini deyil, gərək Mirzə Sakiti sevərdim: "Araqarışdıran, satqın, hər şeyi öz ambisiyalarına qurban verən ağılsız Ə.Kərimliyə dəstək olduğuma görə peşmanam. C.Həsənli də ki, yaralı barmağa... İndi siyasi əcinnələr yuvası olan "Milli Şura"da kim "ağa"dır", kim nökər bəlli deyil, Bəlli olan odur ki, ağır duruma düşmələri səbəbindən qalıblar odla su arasında. Həm də bəlli olan odur ki, əvvəldə dediyimiz kimi, əqidəsindən dönənlər, bir-birini söyənlər, hər dərədən gələnlər, xaricdən dilənənlər, pul üstündə bir-birini söyənlər yığışıblar siyasi əcinnələr yuvası olan "Milli Şura"ya.

# Demokratikləşmə şəraitində insan hüquq və azadlıqları

***İnkişaf anlayışını assosiasiya edən "demokratiya" ilk dəfə Fukidid tərəfindən Qədim Yunanıstanda işlədilmişdir. "Xalqın iradəsi" mənasını ehtiva edən bu söz, işlədildiyi andan bəşəriyyət üçün aktual və arzuolunanları ifadə edən bir anlayış olub. Dövlətin idarə edilməsində xalqın iradəsinin ifadə olunmasının əsas amil olduğunu nəzərdə tutan demokratiyanı yalnız bir dövlət idarəçiliyi forması kimi qəbul etmək düzgün deyildir. Demokratiya, həmçinin, hər hansı bir cəmiyyətin siyasi mədəniyyət və həyat tərzi ilə sıx əlaqədar olan məsələdir.***

Demokratiya - xalq suverenliyinə əsaslanan, xalq hakimiyyəti prinsipini meyar götürən, əsas dövlət orqanlarının seçki nəticəsində formalaşmasına və bunlara xalq tərəfindən nəzarət edilməsinə, dövlətin idarə olunmasında bərabərliyə və qərarların çoxluq tərəfindən qəbul olunmasına istinad edən, cəmiyyətin və cəmiyyət-vətəndaş münasibətlərinin müəyyən dəyərlər sisteminə və dünyagörüşünə əsaslandığı ictimai quruluşdur. Bir siyasi sistem olaraq demokratiyanın fundamental prinsipi insan haqlarının müdafiə edilməsidir, demokratiyanın əsaslandığı bütün digər anlayış və normalar isə bu prinsipin üzvi davamıdır. Əlbəttə, demokratiyanın bu cür açıqlanmasına qarşı mövqelər də mövcud olub - əvvəllər də, indi də. Nəhəng dünya filosofu Aristoteli və görkəmli rus mütəfəkkiri N.A.Berdyayevi xatırlatmaq kifayətdir. Hətta, məsələn, N.Berdyayevin məşhur "Müasir dünyada insan taleyi" əsərində belə fikir də səslənir: "Faşizm, demokratiyanın son həddə çatmış nəticələrindən biridir. Hələ onu da söyləmək olar ki, faşizm - xalqın suverenliyi haqda J.J.Russo təliminin nəticələrindən biridir. Demokratiya, yəni, tərifinə müvafiq olaraq, xalqın suverenliyi haqqında təlim, öz-özlüyündə, insan şəxsiyyəti üçün heç bir azadlıqlar zəmanəti vermir." Bununla belə, fikir müxtəlifliyində, "epistemoloji anarxizmdə" (Feyerabend) itib-batmamaq üçün vaxtilə U.Çörçillin deyimini - "Mənə bəlli olan quruluşlardan ən pisi demokratiyadır, lakin bəşəriyyət hələ ondan yaxşı heç nə kəşf edə bilməmişdir" -rəhbər tutaraq, söhbətimizi davam etdirək. Hər halda, fikir yürütmək üçün bu da bir mövqe seçimidir.

Ə.Abbasov yazır: "Demokratiyanı, sadəcə, bir dövlət idarəçiliyi forması kimi, yaxud müxtəlif mexanizm və qurumların məcmusu kimi təqdim etmək özünü doğrultmur; o, idarəetmə forması olmaqla yanaşı, həm də sivilizasiya, mənəviyyat, siyasi mədəniyyət, şüur və həyat tərzi məsələsidir (azad seçkilər, hər bir şəxsin öz fikrini sərbəst ifadə etməsi, imkan bərabərliyinin təmin edilməsi və s.). Fikrimizcə, Ulu Öndər Heydər Əliyevin "Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir" fikri demokratiya anlayışının mürəkkəbliyini, onun tədrici təkamülə möhtac olduğunu aydın nəzərə çarpdırır. Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı və biri-birini şərtləndirən amillərdir".

İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyət ədalətin və azadlığın əsasıdır. İnsan hüquqları ideyası məhdud, inkişaf etmə təsəvvürlərindən müasir dövrədək təkamülü yolu keçərək nəticədə sosial və hüquqi statusundan asılı olmayaraq, bütün insanlara aid olan vahid prinsip və normalar konsepsiyasına çevrilmişdir. Bu konsepsiyalarda bir çox xalqların doktrinalarından, fəlsəfi, siyasi, iqtisadi, hüquq təlimlərindən irəli gələn, müxtəlif əsrlərdə və dövrlərdə formalaşan fikirlər öz ifadəsini tapmışdır.

Bütövlükdə, tədqiqatlar göstərir ki, insan hüquqlarının formalaşması və inkişafı uzunmüddətli bu və ya digər ölkəyə məxsus olan doktrinalar və ənənələrin mübarizəsi ilə müşayiət olunmuşdur. Müasir dövrdə insan hüquq və azadlıqları konsepsiyalarının əsas ideyaları kimi dövlət və şəxsiyyətin qarşılıqlı münasibəti, şəxsiyyətin sosial müdafiəsi, hüquq və vəzifələrin vəhdəti və s. göstərmək olar. Müasir mərhələdə əsas istiqamət kimi bütün siyasətin və təcrübənin insana yönəlməsi ideyası çıxış etməli, həm nəzəriyyədə, həm də təcrübədə fərdi və kollektiv hüquqların müdafiəsini təmin etməlidir.

L.İsgəndərovanın fikrincə, insan hüquqları nəzəriyyəsinin kökləri kontekstində "azadlıq" və "insan hüquqları və azadlıqları" anlayışlarını fərqləndirmək vacibdir. Birinci halda azadlıq dedikdə, fəlsəfi mənada insana və sosial birliyə xas olan öz iradəsinə və mülahizəsinə görə hərəkət etmək, davranmaq imkanı başa düşülür. Bu, artıq müstəqil suveren hərəkət və davranışıdır. Azadlıq şəxsiyyətin cəmiyyətdə təşəkkülünün, inkişafının və özünürealizesinin dəyişməz şərti-atributuna malik olmaya bilməz. İnsan dünyanı həm yaradıcı, həm də yaradılan kimi çıxış edərək, müəyyən şəklə salıb dəyişdirir. İnsanın ictimai fəaliyyəti onun həqiqi mahiyyətinin ən dərin ifadəsidir. Bu halda azadlıq subyektə, məhz daxilən xas olan bir zərurət qismində özünü göstərir.

Azadlıq haqqındakı ümumi nəzəri anlayış sərbəst hərəkətin müxtəlif subyektlərinə (sosial qrupa, təbəqəyə, bütövlükdə cəmiyyətə və s.) aid spesifik forma alır. Şəxsi azadlıq anlayışının da öz xüsusiyyətləri var. Ayrı-ayrı insanlar müxtəlif şəraitdə eyni səviyyədə olmayan azadlığa malikdirlər. Lakin azadlıqdan tamamilə məhrum olan insan yoxdur. A.Qramşi haqlı olaraq göstərirdi ki, "azadlığın ölçüsü insan anlayışına daxildir". Məsələnin bu cəhəti dolayısı ilə linqvistikanın verdiyi məlumatlarda da öz təsdiqini tapmışdır.

İnsan azadlığı - bu, əslində daha məhdud olan konstitusiya-hüquqi anlayışdır. İnsan azadlığı (pozitiv-hüquqi mənada) obyektiv hüquqi göstərişlərin və konkret fərdin qanunla məhdudlaşdırılmış həddə hərəkət etməsindən ibarət olan subyektiv hüququn demək olar ki, eynidir. Həqiqi insan azadlığa bu çərçivəyə sığarmı? Əsla, xeyir.

İnsan azadlığı - bu, sosial ideal olmaqla yanaşı, həm də şəxsi sərvətdir. Əsl şüurlu tarixi fəaliyyət zəruri olaraq müəyyən sosial idealların irəli sürülməsini tələb edir. Bunsuz həmin tarixi fəaliyyət heçdir, səmərəsizdir.

Ə.Abbasov göstərir ki, demokratiya insan hüquqları ideyasından daha qədim tarixi köklərə malikdir. Müasir dövrdəki insan hüquqları və demokratiya anlayışları bir-birini tamamlayan kimi görünsə də, əslində, birincisi ikincisinin mövcud olması üçün ən əsas şərtlərdən biridir. Azad seçkilər dir. Azadlıq insana cəmiyyətdə özünü aşkar etmək və bununla yanaşı, cəmiyyətin ümumi rifahına öz töhfəsini vermək imkanı verir.

Azadlığın insana verdiyi imkanlar, öz növbəsində, bütün bəşəriyyətin zənginləşməsinə, təkmilləşməsinə aparır. Dünya, fəlsəfi və ictimai fikir tarixində azadlıq anlayışı yeni bir şey deyildir. Müxtəlif dövrlərdə ayrı-ayrı sosial təbəqələrin, siniflərin ideoloqları bu anlayışı öz bildikləri kimi, çox zaman isə birbirinə zidd olan mənalarda şərh etmişlər. Bunun səbəbi ondan ibarətdir ki, azadlıq anlayışının özü çevikdir, tarixən dəyişkəndir, əhatəlidir, çoxcəhətlidir və eyni zamanda da ziddiyyətlidir. Vaxtı ilə Hegel yazırdı: "Heç bir ideya haqqında azadlıq haqqında olduğu qədər tam hüquqla deməmişlər ki, bu ideya qeyri-müəyyəndir, çoxmənalıdır, ən böyük anlaşılmazlıqlar doğura bilir və buna görə həqiqətən də doğurur; adətən, heç bir ideya haqqında, eyni zamanda, heç bir ideyadan azadlıqdan olduğu qədər onu bu dərəcədə az başa düşərək bəhs etmirlər". İstər materialistlər, istərsə də idealistlər azadlığın mürəkkəb və son dərəcə çoxcəhətli olduğunu həmişə qeyd etmişlər.

Fəal varlıq olan insan azadlıq demokratiyanın əsası olmaqla, hər bir şəxsə bərabər və azad səsvermə hüququnun tanınması, bərabər imkanların təmin edilməsi əsas insan hüquqlarındandır. Bəşəriyyət hər zaman bu hüquqlar uğrunda aparılan mübarizələrə şahid olmuşdur. Hakimiyyətin seçkilər yolu ilə təşkil olunması, vətəndaşların dövlət idarəetməsində iştiraketmə hüququ, birləşmək, sərbəst toplaşmaq və dinc yürüş hüquqlarını demokratiyanın siyasi cəhətdən ifadəsi hesab etmək olar. Siyasi azadlıqların tərkib hissəsi olan seçki, səsvermə, birləşmə, yürüş, söz və mətbuat azadlıqları demokratiyanın əsas məzmununu təşkil edir ki, bunlar da cəmiyyətdə bərqərar olmazsa, həmin cəmiyyətdə xalq hakimiyyətindən bəhs etmək mümkün deyildir. Hüquqi dövlət, hakimiyyət, bölgüsü konstitusion nəzarət, azad seçkilər və s. belə amillər demokratik sistemlərin təminatı kimi insan haqları nəzəriyyəsi baxımından müstəsna əhəmiyyətə malikdir. İnsan hüquqları və demokratiyanın bir-biri ilə sıx bağlı olmasını beynəlxalq birliyin qəbul etdiyi beynəlxalq hüquqi sənədlərin məzmununda da görmək mümkündür. "İnsan hüquqları və Əsas Azadlıqlar haqqında Avropa Konvensiyası"nda bu bağlılıq açıq-aydın ifadə edilmişdir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasının 30 aprel 1999-cu il tarixli Qətnaməsi demokratiya ilə insan haqları arasında fundamental əlaqənin olduğuna dair, başqa ifadə ilə desək, demokratiyanın insanın universal fundamental haqqı olduğu barədə mühüm sənəddir.

Siyasi sistem olmaqla yanaşı, demokratiya bir siyasi mədəniyyət və sivilizasiya məsələsidir. Müasir cəmiyyətdə insan hüquqlarının təmin olunması üçün siyasi mədəniyyətin, yəni hakimiyyətlə fərd arasında qarşılıqlı anlaşma (fərdin dövlətin hakimiyyətinə könüllü tabe olması və bunun müqabilində dövlətin fərdin hüquq və azadlıqlarına hörmətlə yanaşaraq, hakimiyyətindən istifadə etməklə, onların təmin olunması üçün lazımı tədbirlər görmək öhdəliyini qəbul etməsi vacib şərtdir. Belə siyasi mədəniyyət demokratiyanın təzahür etməsi üçün münasib zəmin yaradır. Düşünürəm ki, rəqib siyasi fikrə və onun daşıyıcılarına dözümlü münasibət, hətta müəyyən səviyyə və aspektlərdə səmərəli əməkdaşlıq, qarşılıqlı bəhrələnmək - siyasi mədəniyyətin mayasını təşkil edir.

Demokratiyada başqa mühüm amil - insanın (rasional varlıq kimi) həm özünü, həm də cəmiyyəti idarə edə bilmək qabiliyyətinə malik olması məntiqidir. Bu məntiq "insanın hüquqlara və azadlığa sahib olmalıdır" ideyasını daha da gücləndirmişdir. Çoxluğun iradəsini əks etdirən idarəçiliyə və qanunvericiliyə əsaslanan demokratiya, çoxluqla yanaşı, azlığın da hüquq və azadlıqlarının müdafiə edilməsini tələb edir. Demokratiya cəmiyyətdə siyasi mədəniyyətin ünsürlərindən biri olan dözümlülüyü də ehtiva etdiyi üçün çoxluğun mütləq hakimiyyətini qəbul etmir. O, eyni zamanda, azlıqda olanların da cəmiyyətin üzvləri kimi hüquq və azadlıqlarının tanınmasını tələb edir. Demokratik cəmiyyətdə eyni hüquqlara, amma fərqli maraq və tələblərə malik fərd və qruplara göstəriləcək dözümlülüyü insan hüquqlarının təmin olunması kimi qiymətləndirmək mümkündür. İnsani dəyərlərə üstünlük verən anlayış olmaqdan çıxararaq, yalnız seçib-seçilmə mexanizminə əsaslanan idarəetmə kimi qəbul edilən demokratiya, antidemokratik və insan hüquqlarını məhdudlaşdırmağa çalışan güclərin hakimiyyəti demokratik yollarla ələ keçirməsinin legitimləşdirilməsi olacaqdır. Demokratiya ilə insan hüquqları arasında birbaşa və vasitəsiz əlaqənin yoxluğu fikri bir çox mütəxəssislər tərəfindən haqlı olaraq ifadə edilsə də, müqəddərat baxımından hər ikisinin hər zaman bir-birinə ehtiyaclı olduğu danılmazdır.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Çində vəfalı it üç aydır ki, ölən sahibinin yolunu gözləyir



Çinin şimalında yerləşən Daxili Monqolustan muxtar rayonunun Huh-Hoto şəhərində it artıq üçüncü aydır ki, sahibinin həlak olduğu yerdə dayanıb onun yolunu gözləyir. AZƏRTAC xəbər verir ki, China News agentliyinin yaydığı məlumata görə, avqustun 21-də Huh-Hoto şəhərinin avtomobil yollarının birində yol-nəqliyyat hadisəsi baş verib, avtomobil qadını vuraraq öldürüb. Qadının iti həmin gündən etibarən onun həlak olduğu yerə gəlməyə başlayıb.

Gecə növbəsində taksi sürücüsü işləyən Qo Sinxuanın sözlərinə görə, yağışa və qara baxmayaraq, it artıq üç aydır həmin yeri tərk etmir: adamlar yaxınlaşanda qaçır və onlar gedəndən sonra yenə geri qayıdır.

## 19 karatlıq çəhrayı almaz rekord qiymətə satılıb



"Christie?s" satış evinin Cenevrədə keçirilən növbəti axşam hərracında çəhrayı rəngli almaz 39,1 milyon avroya satılıb. AZƏRTAC xəbər verir ki, hərracda təxminən 19 karat çəkidə qiymətli daşın ilk çağırış qiyməti 21 milyon avro idi və almaz alıcılar arasında təklif "savaşına" səbəb olub. Altı dəqiqəlik qiymətləşmədən sonra "Pink Legacy" (Çəhrayı miras) adlı almazın yeni sahibi amerikalı zərgər Harri Vinston olub. Hərrac evinin rüsumları ilə birlikdə almazın ümumi satış qiyməti 44 milyon avro olub.

Bir karatı 2,6 milyon dollara satılan bu almaz hər karatına düşən qiymətə görə dünya rekordu sayılır. Hərrac evinin Avropa üzrə rəhbəri Fransua Kuryel bildirib ki, rənginə görə almaz daşların Leonardo da Vinçisi adlandırılır. Hərrac evinin təmsilçisi 27-44 milyon avro dəyərləndirilən almazın satış qiymətindən məmnunluq ifadə edib. Almazın yeni sahibi ona "The Winston Pink Legacy" adı verib. Təxminən bir əsr bundan əvvəl Cənubi Afrikada tapılan bu nadir almaz uzun müddət "De Beers" almaz yataqları konserninə rəhbərlik edən Oppenhaymer ailəsinin kolleksiyasında olub. Son dövrlərdə qeyr-adi görünüşlü qiymətli daşlara marağın artması dünya hərraclarında onların qiymətinə ciddi təsir göstərib. 2017-ci ildə Honqkonqda keçirilən hərracda "Pink Star" (Çəhrayı ulduz) adlı almaz 67 milyon avroya, iki il bundan əvvəl hərraca çıxarılan "Blue Moon" (Mavi Ay) isə 51 milyon avroya satılıb.

## ELAN

**ADPU-nun II kurs tələbəsi Bərxudarova Mərziyyə Kamil qızının adına verilmiş Kimya ixtisası üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun IV kurs tələbəsi Feyzullayeva Zöhrə Məhəmməd qızının adına verilmiş Riyaziyyat-informatika müəllimliyi ixtisası üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov və təşkilatın kollektivi YAP Mərkəzi Aparatının məsul işçisi Rafael Gülməmmədova atası

**ŞİRMƏMMƏD müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin**

ÜAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlıya

**anası Süsən xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

## Azərbaycan güləşçisi dünya çempionatının bürünc medalına sahib olub



Rumıniyanın paytaxtı Buxarestdə 23 yaşadək güləşçilər arasında dünya çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, ilk yarış günündə yunan-Roma güləşçilərimizdən ikisi mübarizəyə başlayıb. Ramiz Məmmədov (63 kq) mundiala inamlı start verib. Güləşçimiz 1/8 finalda macar rəqibinə elə ilk hissədə qalib gəlməyi bacarıb. Ancaq güləşçimiz 1/4 finalda iranlı rəqibi ilə gərgin mübarizə şəraitində keçən görüşdə uduzub.

İslam Abbasov (87 kq) da 1/8 final mərhələsini rahat keçib. Güləşçimiz Yaponiya təmsilçisini ilk hissədə məğlub edib. Növbəti görüş isə ağır keçib. İ.Abbasov gürcü güləşçinin də öhdəsindən gələrək adını yarımfinala yazdırıb. Ancaq İslam finalın bir addımlığında ukraynalı həmkarı ilə bacarmayıb. Güləşçimiz Misir təmsilçisi ilə bürünc medal görüşünə çıxıb. İlk hissəni 0:3 geridə başa vuran güləşçimiz ikinci hissədə əzmkarlıq nümayiş etdirib və sona yarım dəqiqə qalmış hesabı bərabərləşdirib. Beləliklə, sonuncu xal prinsipinə əsasən, İ.Abbasov ötən il olduğu kimi, yenə U-23 dünya çempionatında bürünc medal qazanıb.

## Futbol üzrə Azərbaycan Kubokunun püşkü atılıb




Noyabrın 14-də futbol üzrə Azərbaycan Kuboku uğrunda turnirin 2018-2019-cu il mövsümünün püşkü atılıb. Peşəkar Futbol Liqasının saytında yer alan məlumata görə, AFFA-nın inzibati binasında keçirilən mərasimdə yarışda iştirak edəcək 12 komandanın rəqibləri müəyyənləşib. Kubok uğrunda turnirdə Premyer Liqada çıxış edən 8 klubla yanaşı, I Divizionda mübarizə aparan 4 klub da iştirak edəcək.

Püşkatma mərasimində komandalar üç səbətə bölünüblər. Birinci səbətdə yer alan "Qarabağ", "Qəbələ", "Neftçi" və "Zirə" mübarizəyə dördədbir finaldan başlayacaq. Püşk zamanı "Sumqayıt", "Keşlə", "Səbail" və "Sabah" ikinci, "Kəpəz", "Qaradağ Lökbatan", "Şüvəlan" və "Ağsu" klubları üçüncü səbətdə yer alıblar. Püşkün nəticələrinə əsasən, dekabrın 6-da keçiriləcək səkkizdəbir finalda "Ağsu" - "Sabah", "Şüvəlan" - "Keşlə", "Sumqayıt" - "Qaradağ Lökbatan" və "Səbail" - "Kəpəz" görüşləri oynanılacaq. Səkkizdəbir finalda komandalar bir oyun keçirəcəklər.

Turnirin dördədbir finalında "Qəbələ" klubu "Ağsu" - "Sabah", "Qarabağ" komandası isə "Şüvəlan" - "Keşlə" görüşlərinin qalibi ilə qarşılaşacaq. Dördədbir finalın digər oyunlarında isə "Neftçi" komandası "Sumqayıt" - "Qaradağ Lökbatan", "Zirə" isə "Kəpəz" - "Səbail" matçlarında üstün olan tərəflə üz-üzə gələcək. Bu görüşlər dekabrın 15-16-da, cavab qarşılaşmaları isə dekabrın 19-20-də oynanılacaq. Turnirin yarımfinal matçları aprelin 23-də, cavab oyunları mayın 1-də keçiriləcək. Final qarşılaşması isə mayın 19-da baş tutacaq.

## Daxili Qoşunların iki hərbi qulluqçusu əlbəyaxa döyüş növləri üzrə Avropa çempionu olub

Polşada əlbəyaxa döyüş növləri üzrə Avropa çempionatı keçirilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 28 ölkədən 400-dən çox idmançının mübarizə apardığı yarışda milli komandamız da təcrübəli idmançılarla təmsil olunub. Mötəbər yarışda Daxili Qoşunların zabiti, kapitan Aydın Həşimov 75 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. A.Həşimov döyüş sambosu üzrə beynəlxalq dərəcəli idman ustası, ciu-citsu üzrə 1-ci Dan qara kəmər sahibidir. O, ciu-citsu üzrə peşəkarlar arasında "Ən texnikalı idmançı" adına layiq görülüb. Həmçinin idmanın bu növü üzrə keçirilmiş Dünya Kuboku yarışının qalibi olub. İki dəfə respublika çempionu adını qazanan A.Həşimov dəfələrlə beynəlxalq yarışlarda, hərbçilər arasında keçirilən turnirlərdə fərqlənib, yüksək mükafatlar qazanıb.



Daxili Qoşunların daha bir hərbi qulluqçusu, baş leytenant İlqar Nəcəfli də bu yarışın favoritləri sırasında olub. O, 85 kiloqram çəki dərəcəsində görüşlərdə rəqiblərinə üstün gələrək növbəti dəfə Avropa çempionu olub.

Mötəbər yarışlarda ölkəmizi layiqincə təmsil edən İ.Nəcəfli ikiqat dünya və Avropa çempionu, Avrasiya yarışının qalibi, Dünya Kubokunun sahibidir. İdmançılarımızı yarışa DİN İdman Cəmiyyətinin üzvü, Əməkdar məşqçi Hikmət Hacıyev hazırlayıb.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**